# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

21 may
2026-cı il,
cümə axşamı
№ 088 (7155)
Qiymәti
60 qәpik




Milli azadlıqdan
şirin nemət yoxdur!

## Bakının irəli sürdüyü əməkdaşlıq modeli...

## Müasir dünyada davamlı inkişaf yalnız sabitlik və əməkdaşlıq şəraitində mümkündür



## İlham Əliyev: Azərbaycanın coğrafiyası və mövcud resursları bu gün olduğundan daha çox tələb olunacaq

Bax səh. 2

## WUF tarixində daha bir ilk...

Bax səh. 5

## Bakı-Tbilisi-Bakı sərnişin qatarı regional inteqrasiyanı gücləndirəcək




Bax səh. 4

## Enerji diplomatiyasının uğurları

Bax səh. 2

## WUF13-ün unudulmaz mirası - Azad Şuşanın 10-cu qardaş şəhəri




Bax səh. 3

## Azərbaycan regionda qarşıdurma səhifəsini bağlamaqda maraqlıdır

Bax səh. 3

## "Ağıllı şəhər" və "ağıllı idarəetmə" modeli

Bax səh. 5

## İki qardaşın yeni Anlaşması

Bax səh. 6

## Trampın ardınca Putin...

Bax səh. 6

## Yaxın Şərq nüvə təhlükəsi ilə üz-üzə...



Bax səh. 7

# Bakının irəli sürdüyü əməkdaşlıq modeli...

## Müasir dünyada davamlı inkişaf yalnız sabitlik və əməkdaşlıq şəraitində mümkündür




## İlham Əliyev: Azərbaycanın coğrafiyası və mövcud resursları bu gün olduğundan daha çox tələb olunacaq

Azərbaycan bu gün qlobal dünyada və formalaşmaqda olan yeni beynəlxalq nizamda özünəməxsus yeri olan dövlətlərdəndir. Son illərdə regionda və beynəlxalq münasibətlər sistemində baş verən mürəkkəb proseslər fonunda Azərbaycanın nümayiş etdirdiyi siyasi iradə, diplomatik çeviklik və milli həmrəylik ölkəmizin nüfuzunu daha da artırıb - xüsusilə 2020-ci il Vətən müharibəsindən sqonra yaranan siyasi-hərbi reallıqların Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturası formalaşdırması olduqca mühüm nəticələrə yol açıb. Bu gün dünya Azərbaycanın regionda yaratdığı sabitliyi və inkişaf modelini diqqətlə izləyir. Bakı artıq yalnız regional mərkəz kimi deyil, həm də qlobal tədbirlərin keçirildiyi mühüm siyasi və iqtisadi platforma kimi diqqəti cəlb edir. Müxtəlif beynəlxalq konfransların, forumların və sammitlərin məhz Azərbaycanda təşkil olunması ölkəmizə olan böyük etimadın göstəricisidir. Bu tədbirlər vasitəsilə dünya ictimaiyyəti Cənubi Qafqazda yaranmış yeni reallıqları daha yaxından müşahidə edir və Azərbaycanın təşəbbüslərinin regional inkişaf üçün nə qədər əhəmiyyətli olduğunu anlayır.

### Qlobal tədbirlər geniş beynəlxalq əlaqələrin təsdiqidir

Bu gün Bakı dünyanın diqqət mərkəzində olan şəhərlərdən biridir. Azərbaycanın ev sahibliyi etdiyi mötəbər beynəlxalq tədbirlər həm ölkənin diplomatik imkanlarını, həm də yüksək təşkilatçılıq qabiliyyətini ortaya qoyur. Bunun ən bariz nümunələrindən biri də WUF-13 forumuna uğurla ev sahibliyi etməsidir. Dünyanın 182 ölkəsinin təmsil olunduğu belə bir tədbirin Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun göstəricisidir.

Belə mötəbər tədbirlər təsadüfi şəkildə hər hansı ölkəyə həvalə edilmir. Bunun üçün həmin dövlətin siyasi sabitliyi, təhlükəsizlik imkanları, beynəlxadlq tərəfdaşlarla münasibətləri və qlobal etimadı yüksək səviyyədə olmalıdır. Azərbaycan bütün bu meyarlara cavab verdiyini artıq dəfələrlə sübut edib. Bu tədbir Azərbaycanın regionda yaratdığı yeni reallıqların dünya tərəfindən qəbul edildiyinin göstəricisidir. Prezident İlham Əliyev mayın 18-də "Euronews" televiziyasına müsahibəsində bildirib ki, WUF13-ə ev sahibliyi etmək bizim üçün böyük şərəfdir. Burada 182 ölkə təmsil olunur: "Bu isə Azərbaycana göstərilən hörmətin bariz nümunəsidir. Bildiyimə görə, iştirakçıların sayı rekord həddə çatıb. Bu da həm mövzunun nə qədər mühüm olduğunu, həm də ev sahibi ölkənin geniş beynəlxalq əlaqələrə malik olduğunu nümayiş etdirir".

Qeyd edildiyi kimi, WUF13 miqyaslı tədbirin rekord həddə qonaqla müşayət olunması dünya dövlətlərinin Azərbaycanla əməkdaşlığa nə qədər önəm verdiyini göstərir. Bu tədbirlər vasitəsilə ölkəmiz öz inkişaf modelini, multikultural dəyərlərini və regional əməkdaşlıq təşəbbüslərini beynəlxalq ictimaiyyətə təqdim edir. Azərbaycanın təcrübəsi xüsusilə münaqişədən çıxmış ölkələr üçün mühüm nümunə hesab olunur.

### Regional əməkdaşlıq modeli...

Azərbaycan tarix boyu sülhü, sabitliyi və ədaləti dəstəkləyən dövlət kimi tanınıb. Ölkəmizin xarici siyasətində əsas prioritetlərdən biri də münaqişələrin beynəlxalq hüquq çərçivəsində və danışıqlar yolu ilə həll olunmasıdır. Azərbaycan bu siyasətini davam etdirir. Müasir dünyada yeni iqtisadi və siyasi münasibətlər sistemi qarşılıqlı əməkdaşlıq və etimada əsaslanır. Məhz buna görə də dövlətlər arasında normal münasibətlərin qurulması böyük əhəmiyyətə malikdir. Azərbaycanın Ermənistan üzərində qələbə qazanmasından sonra nümayiş etdirdiyi mövqe bunu açıq şəkildə sübut edir. Ölkəmiz qalib dövlət olmasına baxmayaraq revanşizm və qisasçılıq siyasətindən uzaq durdu. Əksinə, Azərbaycan regionda davamlı sülhün təmin olunması üçün təşəbbüslərlə çıxış etdi. Ermənistanla münasibətlərin normallaşdırılması, kommunikasiya xətlərinin açılması və iqtisadi əməkdaşlıq imkanlarının yaradılması istiqamətində atılan addımlar Azərbaycanın sülh tərəfdarı olduğunu göstərir. Prezident İlham Əliyev müsahibəsində bildirib ki, Yaxın Şərqdə baş verən hadisələr müəyyən dərəcədə hər kəsə təsir edir: "Biz daim diplomatiyanın tərəfdarıyıq. Diplomatiya olmadan biz öz ehtiyatlarımızı bazarlara çıxara bilməzdik. Çünki bunun üçün digər ölkələrin ərazisindən keçmək, qonşularla və qonşuların qonşuları ilə yaxşı münasibətlər qurmaq, çoxtərəfli əməkdaşlıq formatı formalaşdırmaq, istehsalçılar, tranzit ölkələr və istehlakçılar arasında qarşılıqlı uduşlu vəziyyət yaratmaq lazım idi ki, hər kəs qaydalara əməl etsin və gəlir qazansın. Bu baxımdan düşünürəm ki, Azərbaycanın təcrübəsi faydalı ola bilər. Böhran həll olunduqdan sonra, - bu, tez və ya gec baş verəcək, - yəqin ki, yeni bir vəziyyət yaranacaq. Bir çox ölkələr enerji siyasətlərini və enerji ehtiyatlarının çatdırılması yollarını yenidən nəzərdən keçirəcəklər. Çox güman ki, Azərbaycanın coğrafiyası və mövcud resursları bu gün olduğundan daha çox tələb olunacaq".

Qeyd edildiyi kimi, Azərbaycanın irəli sürdüyü əməkdaşlıq modeli bölgənin gələcək inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Regionda iqtisadi əlaqələrin bərpası yalnız dövlətlər üçün deyil, xalqlar üçün də yeni imkanlar yaradır. Azərbaycan dəfələrlə bəyan edib ki, Cənubi Qafqaz düşmənçilik məkanı deyil, əməkdaşlıq bölgəsinə çevrilməlidir. Bu yanaşma beynəlxalq ictimaiyyət tərəfindən də müsbət qiymətləndirilir. Çünki müasir dünyada davamlı inkişaf yalnız sabitlik və əməkdaşlıq şəraitində mümkündür.

Təcrübə göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. Azərbaycanın humanist və praqmatik siyasəti digər münaqişəli bölgələr üçün də nümunə hesab oluna bilər. Əgər dünya dövlətləri münaqişələrin həllində qarşıdurma deyil, əməkdaşlıq yolunu seçsələr, beynəlxalq münasibətlər sistemində daha sabit və təhlükəsiz mühit formalaşa bilər. Azərbaycan məhz bu ideyanın tərəfdarı kimi çıxış edir və praktiki fəaliyyəti ilə bunu sübut edir.

### Azərbaycanın təşəbbüsləri qəbul olunur...

Bu gün Azərbaycan beynəlxalq aləmdə Cənubi Qafqazın sabitləşdirici gücü kimi qəbul olunur. Azərbaycanın iqtisadi gücü, enerji layihələri, nəqliyyat dəhlizləri və diplomatik təşəbbüsləri onu bölgənin aparıcı dövlətinə çevirib. Dünya liderlərinin və beynəlxalq təşkilatların nümayəndələrinin Azərbaycanın rolunu yüksək qiymətləndirməsi də bunu təsdiqləyir. Azərbaycanın həyata keçirdiyi enerji və logistika layihələri regionun strateji əhəmiyyətini daha da artırıb. Xüsusilə Şərqlə Qərbi birləşdirən nəqliyyat marşrutlarının inkişaf etdirilməsi Azərbaycanın beynəlxalq iqtisadi sistemdə mühüm yer tutmasına səbəb olub. Bu layihələr yalnız ölkəmizin deyil, bütövlükdə regionun iqtisadi inkişafına xidmət edir. Eyni zamanda Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən əməkdaşlıq platformaları region ölkələri arasında qarşılıqlı asılılığı artırır və bu da sabitliyə müsbət təsir göstərir.

Azərbaycanın diplomatik siyasəti açıq və qarşılıqlı maraqlara əsaslanır. Bu siyasət Azərbaycanın beynəlxalq nüfuzunu daha da gücləndirib. Bir çox dövlət başçıları və beynəlxalq ekspertlər Azərbaycanın təcrübəsinin öyrənilməsinin vacibliyini vurğulayırlar. Çünki ölkəmiz qısa müddət ərzində həm müharibədən qalib çıxmağı, həm də regionda sabitliyi təmin etməyi bacarıb. Azərbaycanın təşəbbüsləri göstərir ki, qarşılıqlı hörmətə və əməkdaşlığa əsaslanan siyasət regionların inkişafı üçün ən doğru modeldir. Gələcəkdə də Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin daha da güclənəcəyi və ölkəmizin qlobal proseslərdə mühüm rol oynamağa davam edəcəyi şübhəsizdir.

***P.İSMAYILOV***

# Enerji diplomatiyasının uğurları

## Avropanın Azərbaycan kimi alternativ təchizat mənbəyinə ehtiyacı artır




**Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində regional inkişaf və qlobal həmrəyliyin gücləndirilməsinə dair bir çox məqamlara diqqət çəkdi. İlk növbədə, onu qeyd etmək lazımdır ki, dünyanın nüfuzlu media orqanlarından bir olan "Euronews" telekanalının Azərbaycan Prezidentindən müsahibə götürməsi dövlətimizin başçısının yüksək nüfuzüna olan diqqətin bariz nümunəsi kimi qiymətləndirilə bilər. Müsahidədə xüsusi nəzərə çarpan ən mühüm amil Azərbaycanın qlobal enerji təchizatında artan rolu və nüfuzu ilə bağlıdır. Bəyan edildiyi kimi Azərbaycan dost və etibarlı tərəfdaşdır, ona uzadılan əli geri çevirmir və son 5 ildə regional enerji və nəqliyyat, infrastruktur quruculuğunun önündə gedən Avropa Komissiyası ilə faydalı əməkdaşlığı da bunu təsdiqləyir. Eləcə də, bir çox Avropa dövləti ilə inkişaf edən iqtisadi-ticari-investisiya əlaqələrinin gündəliyi daha da genişlənir, enerji-kommunikasiya bağlantıları öz coğrafiyasını şaxələndirərək Şərqi və Mərkəzi Avropadan Qərbi Avropaya keçid alır. Bu enerji əməkdaşlığının növbəti uğuru kimi 2026-cı ilin ilk günlərində Avstriya və Almaniyaya Azərbaycan qazının nəqlinə başlanıldı. Təbii qaz ixrac edilən 16 ölkədən 12-si Avropa İttifaqı dövlətidir. Bütün bunlar Aİ-Azərbaycan münasibətlərinin nümunəvi formatı olmaqla, qarşılıqlı etibar və möhkəm etimadı əks etdirir.**

### Cənub Qaz Dəhlizinin ötürmə imkanları genişləndirilir

Boru kəməri infrastrukturu və hasilat sahəsində ev tapşırığını vaxtında həyata keçirən ölkəmiz hazırda istehsal səviyyəsini artırmaqdadır. Gələn ayın əvvəlində yeni yataqdan qaz hasilatına başlanılması ilə bağlı müsbət siqnallar premium bazara - Avropaya təchizatı daha da şaxələndirəcək. Proqnozlara görə, təbii qaz hasilatının yaxın illərdə hər il 15-20 faiz artacağı gözlənilir. Qeyd edək ki, 2025-ci ildə Azərbaycanda 51,5 milyard kubmetr təbii qaz hasil edilib. 2024-cü ildə bu göstərici 50.3 milyard kubmetr olub. Hasilatın 14,1 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"nin, 27,9 milyard kubmetri "Şahdəniz"in, 1,6 milyard kubmetri "Abşeron" yatağının, 7,9 milyard kubmetri isə SOCAR-ın payına düşüb. Qaz ixracına gəldikdə isə, xarici ümumi satış 25,2 milyard kubmetr olub. Bundan 12,8 milyard kubmetr Avropaya, 9,6 milyard kubmetr Türkiyəyə, 2,3 milyard kubmetr Gürcüstana, 0,5 milyard kubmetr isə Suriyaya ixrac edilib. Son 4 ildə yalnız Avropaya 57 milyard kub metrdən çox qaz nəql edən Azərbaycanın artan qaz hasilatı ixracatın da həcminə təsirsiz ötüşmür. Təbii qazın həcminə görə Azərbaycan Avropa İttifaqında idxalçı dövlətlər arasında ilk beşlikdə qərarlaşıb. Planlaşdırılan və ya gözlənilən artımlar isə Azərbaycan qaz ixracatının kəskin artmasına səbəb olacaq. Bu daha çox ölkəyə, daha çox qaz tədarükü deməkdir.

Həmçinin, "yaşıl enerji" hasilatının artması daxili istehlakda təbii qaz qənaətinə və daha çox ixracata imkan verəcək. Bu isə dövlət gəlirlərinin artırılması baxımından vacibdir. Qaz ixracatı strateji olmaqla yanaşı, ölkəyə daxil olan valyutanın həcmini artıracaq. Bu baxımdan, Azərbaycan yaxın illərdə təbii qaz ixracatını kəskin artıra biləcək. Bu isə Cənub Qaz Dəhlizinin ötürmə imkanlarının genişləndirilməsini daha prioritetləşdirir. Təbii qaz ixracatı dövlət gəlirlərini artırmaqla yanaşı, ölkəmizin geo-siyasi mövqeyini daha da möhkəmləndirərək regionun enerji təhlükəsizliyinin güclənməsində Azərbaycanın rolunu gücləndirir.

### Qarabağ və Şərqi Zəngəzurun şəhərsalma təcrübəsi dünya ölkələri üçün yeni model ola bilər

"Euronews" televiziyasına müsahibədə digər diqqətçəkən mühüm məqam Azərbaycanın öz maliyyə potensialı və texnoloji resusrları ilə şəhərsalmanın müasir landşaftının qurulması ilə bağlıdır. Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda "ağıllı şəhər" və "yaşıl enerji" layihələrini icra etməklə, həm də dünyaya şəhərsalmanın çoxkomponentli strukturunu da təqdim edir. Bura təkcə mənzil, yaşayış sahəsi, qəsəbə və kənd tikintisi daxil deyil, enerji, yol, nəqliyyat, kommunikasiya, rabitə və kommunal xətlər, urbanizasiyanın digər komponentləri, həmçinin, sənaye və iqtisadi infrastrukturların inşası daxildir ki, bu da nəhəng və "ağıllı urbanizasiya" deməkdir. İndiyə qədər 307 meqavatlıq hidroenerji gücü tədarük edən elektrik infrastrukturunun yaradılaraq istifadəyə verilməsi, habelə 340 meqavat gücündə Günəş enerjisi layihələrinin inşası, uzunluğu 75 kilometr olan tunellərin çəklişi, 500 körpünün (435-i artıq tikilib) salınması, dəmir yolları, məktəblər, xəstəxanalar və digər obyektlərin yaradılması vahid bir şəhərsalma zəncirinin, quruculuq konsepsiyasının nəticəsidir. Paralel və nizamlı şəkildə həyata keçirilən bu layihələrin sosial məzmunu isə 85 min insanın doğma torpaqlarına qayıdışının təmin edilməsidir. Bu, bir daha sübutr edir ki, urbanizasiya sosial rifah üçün də vacib faktorlardandır və Azərbaycan bunu uğurla həyata keçirir.

Müasir şəhərsalma unikallığı ilə fərqlənən Azərbaycan regionda şəhər və kəndlərin sıfırdan qurulmasının modelini yaradıb və davam etdirir. Bu misilsiz təcrübə qlobal şəhərsalma və sənaye şirkətləri üçün canlı proqramdır və "Ağıllı şəhər", "Ağıllı kənd" konsepsiyaları üzrə layihələr həyata keçirmək istəyən ölkələr, investorlar, tikinti holdinqləri bu zəngin təcrübəni mənimsəyə bilərlər. Eyni zamanda, innovasiya, texnologiya şirkətlərinin azad ərazilərdə aparılan quruculuqda iştirakı üçün də münbit şərait yaranır. Bu baxımdan, Azərbaycan xarici sərmayəçilərə yeni şəhər sənayesi və innovasiya quruculuğunda təmsil olunmasını da təşviq edir.

***E.CƏFƏRLİ***

# Azərbaycan regionda qarşıdurma səhifəsini bağlamaqda maraqlıdır

## Postmünaqişə bərpa səylərimiz sülh quruculuğu strategiyasının ayrılmaz hissəsidir

**Azərbaycanın postmünaqişə dövründə nümayiş etdirdiyi mövqe və davranışlar həm Cənubi Qafqaz regionunda, həm də beynəlxalq münasibətlər sistemində sabitlik, əməkdaşlıq və inkişaf baxımından mühüm əhəmiyyət daşıyır. 44 günlük Vətən müharibəsindən sonra ölkənin əsas prioriteti regionda davamlı sülhün təmin olunması, kommunikasiya əlaqələrinin bərpası və qarşılıqlı əməkdaşlığın genişləndirilməsi oldu - Azərbaycan qalib dövlət kimi revanşist yanaşmadan uzaq duraraq beynəlxalq hüquq normalarına əsaslanan konstruktiv siyasət yürütdü, sülh müqaviləsinin imzalanması üçün təşəbbüslərlə çıxış etdi. Xüsusilə azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri, "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin həyata keçirilməsi ölkənin gələcəyə hesablanmış inkişaf strategiyasının göstəricisidir.**




### Asiya ilə Avropa arasındakı əlaqələr daha da möhkəmlənəcək

Müasir dünyamızda əsas inkişaf predmeti kimi əlaqələndirmə, inteqrasiya və yaxın münasibətlər öncül yer tutur. Güclü nəqliyyat şəbəkəsi şəhərlərin böyüməsinə, yeni yaşayış məntəqələrinin formalaşmasına və iqtisadi fəallığın artmasına şərait yaradır. Magistral yollar, dəmir yolları və logistika mərkəzləri sənaye sahələrinin inkişafını sürətləndirir, əmək mobilliyini artırır və investisiya axınını gücləndirir. Bununla yanaşı, urbanizasiya prosesləri mənzil tələbatını artıraraq yeni infrastruktur layihələrinin həyata keçirilməsini zəruri edir. Müasir və dayanıqlı nəqliyyat sistemləri ekoloji tarazlığın qorunmasına, iqlim dəyişikliklərinin təsirinin azaldılmasına və insanların həyat keyfiyyətinin yüksəlməsinə mühüm töhfə verir. Azərbaycanın həyata keçirdiyi səylər, ortaya qoyduğu siyasi iradə də məhz bu istiqamətdədir. XİN başçısı deyib ki, nəqliyyat dəhlizləri, infrastruktur və urban inkişaf bir-biri ilə sıx bağlıdır. Müasir nəqliyyat dəhlizləri məskunlaşma proseslərinə, sənaye inkişafına, əmək mobilliyinə, investisiya hədəflərinə, mənzil tələbatına və iqlim dayanıqlılığına eyni vaxtda təsir göstərir. Ceyhun Bayramov qeyd edib ki, davamlı və düzgün planlaşdırılmış şəhərlər uzunmüddətli iqtisadi və sosial faydaların təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycanın azad edilmiş ərazilərində genişmiqyaslı yenidənqurma və bərpa işlərinin həyata keçirildiyini deyən nazirin sözlərinə görə, şəhər, qəsəbə və kəndlər davamlılıq, "ağıllı" idarəetmə, yaşıl enerji, iqlim dayanıqlılığı və insan mərkəzli şəhərsalma prinsipləri əsasında yenidən qurulur.

Bakının təşəbbüsləri həm də qlobal miqyasda əlaqələndirmədə mühüm yer tutur. Ceyhun Bayramov bildirib ki, müxtəlif regionlardakı sənaye zonaları arasında yeni əlaqələrin yaradılması, iqtisadi imkanların bərpası uzunmüddətli sülh və əməkdaşlıq üçün şərait və imkanların formalaşdırılması deməkdir: O bildirib ki, yeni nəqliyyat dəhlizləri, dəmir yolları, avtomobil magistralları, enerji infrastrukturu və rəqəmsal şəbəkələr yenidənqurma ərazilərini daha geniş regional və beynəlxalq iqtisadi sistemlərə inteqrasiya edir. Bu investisiyalar mobilliyi, ticarəti, sərmayələri, turizmi və məşğulluğu təşviq edir, eyni zamanda, regional qarşılıqlı asılılığı və uzunmüddətli sabitliyi gücləndirir. Bu baxımdan, onların təsiri Azərbaycanın sərhədlərindən xeyli kənara çıxaraq Asiya ilə Avropa arasında bağlantını gücləndirir və daha geniş regional iqtisadi artıma və əməkdaşlığa töhfə verir.

XİN başçısı onu da əlavə edib ki, Azərbaycan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) və Şimal-Cənub Dəhlizinin əsas təşviqedicilərindən biri kimi beynəlxalq səviyyədə tanınan roluna söykənərək, postmünaqişə strategiyasının tərkib hissəsi olaraq multimodal nəqliyyat bağlantılarının inkişafını ardıcıl şəkildə təşviq edir: "2025-ci ilin avqustunda imzalanmış Vaşinqton Bəyannaməsi Beynəlxalq Sülh və Rifah naminə Tramp Yolu təşəbbüsünün əsasını qoyub. Bu təşəbbüs yalnız Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz multimodal əlaqəni təmin etməyəcək, eyni zamanda, dəmir yolları, avtomobil magistralları, enerji kəmərləri, elektrik və fiber-optik kabellər vasitəsilə Asiya ilə Avropanı birləşdirən yeni strateji bağlantı xətti yaradacaq".

Onun sözlərinə görə, Horadiz-Ağbənd dəmir yolu və Türkiyənin yeni Qars-İğdır-Dilucu dəmiryolu xətti Zəngəzur dəhlizini tamamlayaraq regional bağlantını gücləndirəcək və Asiya ilə Avropa arasındakı əlaqələri daha da möhkəmləndirəcək.

### 15 milyard ABŞ dolları həcmində investisiya...

Azərbaycanın təşviq etdiyi sülh və əməkdaşlıq modeli region xalqlarının rifahına, təhlükəsizliyinə və firavan gələcəyinə xidmət edir. Eyni zamanda, ölkənin beynəlxalq humanitar təşəbbüslərdə fəal iştirakı və multikultural dəyərlərə sadiqliyi onun qlobal miqyasda etibarlı tərəfdaş kimi mövqeyini daha da gücləndirir. Yeri gəlmişkən, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Əlaqələndirmənin mərkəzində şəhərlər: şəhər yenidənqurması və regional əməkdaşlıq" mövzusunda keçirilmiş tədbirdə çıxışı zamanı bildirib ki, Azərbaycanın postmünaqişə bərpa səyləri sülh quruculuğu strategiyasının ayrılmaz hissəsi kimi qiymətləndirilməlidir: O bildirib ki, bu strategiya daha firavan gələcəyin qurulmasına xidmət edir - Azərbaycan azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma və məskunlaşdırma layihələrinə təxminən 15 milyard ABŞ dolları həcmində investisiya yatırıb. Onun sözlərinə görə, Azərbaycan bununla regionda qarşıdurma səhifəsini bağlamaqda səmimi marağını nümayiş etdirib.

### Möhkəm zəmin...

Təbii ki, bu imkanların genişləndirilməsi həm də bölgədə formalaşan sabbitlik və sülh ilə birbaşa əlaqəlidir. Azərbaycanın təşəbbüsü ilə ərsəyə gələn sülh prosesi, Vaşinqtonda sülh sazişi layihəsinin paraflanması bu istiqamətdə də yeni dinamizmin formalaşmasına yol açır. Bakının Ermənistana münasibətdə humnaist mövqedən çıxış etməsi - ixrac-idxal imkanlarına icazə verməsi həm regional, həm də beynəlxalq əməkdaşlığa böyük töhfədir. Nazir çıxışında vurğulayıb ki, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpası regionda yeni dinamika yaradıb, əməkdaşlıq, ticarət, əlaqələndirmə və iqtisadi inkişaf üçün yeni imkanlar açıb.Nazirin sözlərinə görə, Azərbaycan və Ermənistan arasında normallaşma prosesi regional əməkdaşlıq və qarşılıqlı faydalı əlaqələrin inkişafı üçün möhkəm zəmin yaradır.

**P.İSMAYILOV**

# WUF13-ün unudulmaz mirası - Azad Şuşanın 10-cu qardaş şəhəri

BMT-nin Məskunlaşma Proqramı ilə Azərbaycan hökumətinin əməkdaşlığı çərçivəsində Bakıda "Hamı üçün mənzil: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məntəqələri" mövzusunda keçirilən Ümumdünya Şəhərsalma forumunun 13-cü sessiyası (WUF13) dünyanın müxtəlif ölkələrinin milli hökumətlərini və icmalarını, mütəxəssisləri bir araya gətirərək müasir çağırışlar fonunda şəhərlərin dayanıqlı inkişafı ilə bağlı aktual məsələlərin müzakirələrinə, qabaqcıl təcrübələrin bölüşdürülməsinə imkan yaradıb.

Dünyanın 182 ölkəsindən 45 mindən artıq nümayəndənin qatıldığı tədbirdə WUF tarixinə düşən bir sıra əlamətdar hadisələr baş verib, rekordlara imza atılıb. Bunlardan biri də forum çərçivəsndə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa ilə Türkiyənin Trabzon şəhərlərinin qardaşlaşmasıdır.

### Dost ölkələrin Şuşaya xüsusi rəğbəti

Şəhərlərin qardaşlaşması dünyada yaranan ən gözəl ənənələrdən biridir. Bu, həm ölkələr arasında siyasi bağların, qarşılıqlı etimad mühitinin möhkəmlənməsinə, həm də fərqli mədəniyyətlərin təbliğinə, onların bir-birinə yaxınlaşmasına töhfə verir. Şuşa Azərbaycan üçün adi bir yaşayış məntəqəsi deyil. Əsası 1752-ci ildə Pənahəli xan tərəfindən qoyulan Şuşa Qarabağın tacıdır. Lakin bu şəhərin əvəzsiz dəyəri yalnız önun coğrafi yerləşməsində, təbii gözəlliyində, uca dağlar qoynunda buludlarla baş-başa verərək möcüzəvi bir səma-məkan vəhdəti yaratmasında deyil. Onun xalqımız üçün böyük mənəvi dəyəri var. Şuşa tarixən Azərbaycan şəhəri kimi inkişaf edib və burada onilliklər boyunca zəngin mədəniyyətimizin çox gözəl nümunələri yaranıb. Şuşa qalası, buradakı çoxsaylı abidələr tariximizin daş möhürləridir. Ölkəmizi bütün dünyada tanıdan muğam ustadlarının, xanəndələrin sıraları kifayət qədər geniş olan pleyadası məhz Şuşada yetişib.

Şuşa eyni zamanda Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı parlaq Qələbənin simvoludur. Erməni hərbi birləşmələri 1992-ci il 8 may tarixində Şuşanı zəbt etdilər. Amansız dağıntılarla müşayiət olunan bu işğal 28 il davam edib. 2020-ci il noyabrın 8-də Şuşanın Azərbaycanın xüsusi təyinatlı qüvvələri tərəfindən azad edilməsi ilə 44 günlük müharibənin taleyi böyük həcmdə həll olundu. Bundan sonra düşmən müqavimət göstərməyin mənasız olduğunu anlayaraq onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli bəyanatı imzalamaq məcburiyyətində qaldı. Beləliklə də, Azərbaycan ərazi bütövlüyünü, daha sonra isə suverenliyini hərbi-siyasi yolla təmin etmiş oldu. Şanlı zəfərlərimiz tarixdə əbədi qalacaq.

Postmüharibə dövründə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın xüsusi qayğısı sayəsində Şuşa həm fiziki olaraq bərpa edilir, şəhərin qədimliyi, tarixiliyi qorunmaqla yeni siması formalaşdırılır, həm də onun mədəniyyət ənənələri dirçəldilir, erməni vandalizminə məruz qalmış tarixi abidələrinə ikinci həyat verilir. Artıq burada Heydər Əliyev Fondunun dəstəyi ilə "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günləri ənənəvi qaydada keçirilir.

Şuşaya həmçinin bütün türk və İslam coğrafiyasında böyük maraq var. Xatırladaq ki, postmüharibə dövründə Şuşa həm türk, həm də İslam dünyasının mədəniyyət paytaxtı elan olunub və buurada çoxsaylı qonaqların iştirakı ilə rəngarəng tədbirlər keçirilib.

Dost ölkələrin ayrı-ayrı şəhərlərinin Şuşa ilə qardaşlaşması da Azərbaycan diplomatiyasının böyük uğurudur. İkinci Qarabağ müharibəsindən əvvəl - 2013-cü il may ayının 8-də Şuşa ilə Macarıstanın Dyöndyöş şəhəri arasında qardaşlaşma sənədinin imzalanması böyük rəmzi məna daşıyırdı. Bu, həm də tarixi şəhərimizin, ərazilərimizin işğaldan azad ediləcəyinə sarsılmaz inamın ifadəsi idi.

Postmüharibə dövründə isə Şuşa ilə Türkiyənin Ərzurum və Kayseri , Tacikistanın İsfara, Cənubi Koreyanın Andon, Qazaxıstanın Türküstan, Özbəkistanın Xivə, Bolqarıstanın Veliko Tırnovo, Serbiyanın Novi Pazar, Macarıstanın Veszprem şəhərləri arasında qardaşlaşmaya aid sənədlər imzalanıb. WUF13 çərçivəsində Şuşa ilə Trabzon şəhərləri arasında qardaşlaşma haqqında memorandumu Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov və Trabzon Böyükşəhər Bələdiyyəsinin başçısı Ahmet Metin Genç imzalayıblar. Bununla da postmüharibə dövründə Şuşa ilə qardaşlaşan şəhərlərin sayı 10-a çatıb.





### Parlamentdə şəhərsalma müzakirələri

Yuxarıdakı siyahıdan da məlum olduğu kimi, postmüharibə dövründə Şuşa ilə qardaşlaşan 10 şəhərdən üçü Türkiyəni təmsil edir. Bu. Azərbaycanla Türkiyənin zirvədə olan dostluğunun, qardaşlığının daha bir əlamətidir. Yeri gəlmişkən, Türkiyədən olan parlamentarilər də WUF13 tədbirində fəal şəkildə iştirak ediblər. Bu günlərdə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Türkiyə Böyük Millət Məclisinin (TBMM) İctimai işlər, şəhərsalma, nəqliyyat və turizm komitəsinin sədri Adil Karaismailoğlunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə BMT-nin Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının qlobal urbanizasiya gündəliyi baxımından əhəmiyyəti, Azərbaycan və Türkiyənin şəhərsalma və yenidənqurma təcrübəsi, bu sahədə parlamentlərarası əməkdaşlıq məsələləri müzakirə edilib.

Qeyd olunub ki, WUF13 Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində artan nüfuzunun növbəti təsdiqidir. Diqqətə çatdırılıb ki, Azərbaycan şəhər və kəndlərin müasir şəhərsalma prinsipləri əsasında yenidən qurulması, dayanıqlı infrastrukturun yaradılması və təhlükəsiz yaşayış mühitinin formalaşdırılması istiqamətində nümunəvi təcrübə əldə edib. Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələri, həmçinin müasir baş planlar əsasında aparılan yenidənqurma işləri beynəlxalq urban inkişafı baxımından nümunəvi təcrübə kimi qiymətləndirilir.

Görüşdə TBMM-in İctimai işlər, şəhərsalma, nəqliyyat və turizm komitəsinin sədri Adil Karaismailoğlu WUF13-ün yüksək səviyyədə təşkil olunduğunu bildirib. O, forumun şəhərsalma, infrastruktur və dayanıqlı inkişafla bağlı müasir çağırışların müzakirəsi üçün mühüm platforma olduğunu vurğulayıb.

**Mübariz ABDULLAYEV**

# Bakı-Tbilisi-Bakı sərnişin qatarı regional inteqrasiyanı gücləndirəcək

Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirak edən Gürcüstanın Baş nazir İrakli Kobaxidzenin səfəri çərçivəsində Azərbaycan və Gürcüstan arasında yeni kommünike imzalanıb. Prezident İlham Əliyev və İrakli Kobaxidzenin iştirakı ilə imzalanıb təsdiq olunan sazişlər iqtisadiyyat, enerji və bağlantı sahələrində ikitərəfli əməkdaşlığın dərinləşdirilməsinə yönəlmiş birgə niyyəti ifadə edir. İmzalanmış sənədlərə Gürcüstana təbii qazın təchizatı, Azərbaycan təbii qazının beynəlxalq bazarlara əlavə təchizatı üçün tranzit razılaşmalarının davam etdirilməsi, Gürcüstana elektrik enerjisinin tədarükü və Gürcüstan ərazisindən Türkiyəyə elektrik enerjisinin tranziti haqqında hökumətlərarası sazişlər, eləcə də Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi çərçivəsində aparılan modernləşdirmə işlərinin yekun qəbulu və birgə nəqliyyat bağlantılarının inkişaf etdirilməsi daxildir. Hərtərəfli sazişlər toplusunun imzalanması iki qonşu və dost ölkə arasında möhkəm strateji tərəfdaşlığı bir daha təsdiqləyir.

Nəqliyyat sahəsində əməkdaşlığın mühüm istiqamətlərindən biri kimi Azərbaycan və Gürcüstan arasında birbaşa kommunikasiyanı təmin edən Bakı-Tbilisi-Bakı sərnişin qatarının fəaliyyətinin bərpa olunmasıdır. Pandemiya ilə əlaqədar fəaliyyətinə fasilə verilmiş bu dəmir yolu marşrutunun açılması xeyli vaxtdır ki, hər iki ölkənin müvafiq qurumları və hökumət üzvləri tərəfindən müzakirə olunurdu və artıq yekun qərar qəbul edildi. Tərəflər arasında əldə edilmiş anlaşmaya əsasən, Bakı-Tbilisi sərnişin qatarının mayın 26-dan işə düşməsi gözlənilir. Qatarlar hər gün Bakıdan saat 23:10-da yola düşəcək və növbəti gün saat 08:41-də Tbilisiyə çatacaq. Tbilisidən isə qatar saat 21:00-da yola düşərək ertəsi gün saat 06:24-də Bakıya çatacaq. Bu müddətin sərhəd-gömrük baxışı məqsədilə 1 saatı Azərbaycan sərhədi, 1 saatı isə Gürcüstan sərhədi üçün nəzərdə tutulub.

Bakı-Tbilisi-Bakı marşrutu üzrə qatarlara Azərbaycan ərazisində Bakı Dəmiryol Vağzalı, Biləcəri, Yevlax, Gəncə, Ağstafa və Böyük Kəsik stansiyalarında dayanacaq veriləcək. Gürcüstan ərazisində isə qatarlar Qardabani stansiyası və Tbilisi Dəmiryol Vağzalındakı dayanacaqda sərnişinləri qəbul edəcək.

ADY-dən verilən məlumata görə, bu marşrut üzrə İsveçrənin "Stadler Rail Group" şirkətinin istehsalı olan yataq tipli vaqonlardan ibarət müasir qatarlar hərəkət edəcək.

Bakı - Tbilisi - Bakı marşrutu üzrə gedişhaqqı məsafədən asılı olaraq komfort sinfi üzrə 51 AZN-dən başlayır. Marşrut üzrə bir istiqamətə Bakıdan Tbilisiyə minimum gedişhaqqı 81 AZN, Yevlaxdan 67 AZN, Gəncədən 62 AZN, Ağstafadan isə 57 AZN-dir. Böyük Kəsikdən Qardabani stansiyasına isə 51 AZN təşkil edir.

Qeyd edək ki, beynəlxalq istiqamətlər üzrə gedişhaqqı İsveçrə frankının yerli məzənnəyə nisbətinə əsasən formalaşdırılır və kurs fərqinə görə dəyişə bilir. Bakı - Tbilisi - Bakı reysi üzrə bilet qiymətləri də Gürcüstanla hesablaşma əsasında İsveçrə frankının manata məzənnəsinə görə müəyyənləşdirilir. Bundan əlavə, beynəlxalq marşrutlar üzrə qatarın keçdiyi hər bir ölkə tarifə əmsal tətbiq edir.

Qiymətlərə həmçinin ölkədaxili marşrutlarda olduğu kimi, həftə sonları, bayram günləri və yer seçimi də təsir göstərir.

Xatırladaq ki, 2019-cu ildə Bakı - Tbilisi - Bakı marşrutu üzrə istismar olunan köhnə qatarlar artıq istismardan çıxarılıb. Hazırda isə reyslər müasir "Stadler" vaqonları ilə həyata keçiriləcək. Yeni nəsil hərəkət tərkiblərində daha yüksək komfort, müasir interyer, fərdi xidmət imkanları və beynəlxalq standartlara uyğun səyahət şəraiti təqdim edilir.

## Sərfəli və əlçatan tarif tətbiq olunacaq

Hazırda marşrut üzrə sərnişindaşımanın təşkili və digər texniki məsələlərlə bağlı tərəflər arasında müvafiq işlər davam etdirilir. Marşrut üzrə tariflərə gəlincə, hələlik yekun qiymət müəyyən edilməyib və bu istiqamətdə müvafiq ikitərəfli təhlillər aparılır. Tarif təyinatı zamanı dəmir yolu infrastrukturunun müasirləşdirilməsi, lokomotiv və xidmət xərcləri, enerji istehlakı, sərhəd-keçid prosedurları, texniki xidmət tələbləri və tranzit hesablamaları nəzərə alınacaq. Bu dəyərləndirmələr zamanı, həmçinin qatarın yerin konfiqurasiyası, vaqon tipi və yerlərin vəziyyətinə uyğun bir neçə tarif təyin ediləcək. İstənilən halda tariflərin sərfəli və əlçatan olacağı istisna deyil.

Bakı-Tbilisi-Bakı marşrutu üzrə gündəlik sərnişin qatarlarının fəaliyyətinin bərpa olunması sözsüz ki, mühüm iqtisadi-sosial hadisə olmaqla, quru sərhədlərin açılması istiqamətində ilk addımdır. Gün ərzində yüzlərlə sərnişinin Gürcüstan sərhədini keçməsi faktiki olaraq quru sərhədlərindən maneəsiz hərəkətin təmin edilməsi demək olacaq. Bu, növbəti mərhələdə digər nəqliyyat növləri, o cümlədən avtobus və fərdi minik avtomobillərinin də həmin sərhəddən keçidinə zəmin yarada bilər. Sözsüz ki, təhlükəsizlik, miqrasiya, sərhədkeçmənin vəziyyəti, regiondakı geosiyasi amillər və s. dərin məsələlər quru sərhədlərinin açılmasında mühüm faktorlardır və bu barədə tələsik qərar vermək də düzgün olmazdı. Azərbaycan hökuməti hər zaman düşünülmüş və düzgün qərarlar verir, ona görə də, şəraitə və regiondakı proseslərə uyğun olaraq gələcəkdə digər addımlar atılacaq.




## Turizm, xidmət və əmtəə mübadilələrində yeni imkanlar

Gürcüstanla sərnişindaşımada dəmir yolu bağlantısının qurulması isə iqtisadi, sosial, turizm, xidmət və və digər amillər baxımından mühüm faydalar gətirəcək.

İlk növbədə, Gürcüstanda yaşayan 400 mindən çox azərbaycanlının ölkəmizə gediş-gəlişi üçün rahat hərəkət infrastrukturu formalaşacaq. Eləcə də, Azərbaycanda yaşayan soydaşlarımızın öz qohumlarını, yaxınlarını görmək üçün dəmir yolundan istifadəsi səyahət saylarını xeyli yüksəldəcək. Bu, həm də xarici turistlər üçün əlverişli imkan açacaq. Turizm sektorunda qonaqların hərəkət cədvəlində dəmir yolu nəqliyyatı xüsusi yer tutur. Sərnişin daşımalarının yenidən bərpası daha sərfəli səyahət imkanlarına üstünlük verən xarici turistlərin bu qatarla Azərbaycana gəliş saylarını artıra bilər.

Hər iki ölkə Cənubi Qafqazın nəqliyyat və turizm qapısıdır, bu baxımdan turizm və xidmət sektorlarında canlanma daha da artacaq, qarşılıqlı əmtəə mübadilələrində də yüksək templər qeydə alınacaq.

Azərbaycan-Gürcüstan münasibətləri yalnız iki ölkənin maraqlarına deyil, ümumilikdə regional inkişafa - sabitliyin güclənməsinə, iqtisadi və enerji əməkdaşlığının genişlənməsinə xidmət edir. Bu baxımdan nəqliyyat bağlantılarının möhkəmləndirilməsi və Bakı-Tbilisi-Bakı dəmir yolu qatarının fəaliyyətinin bərpa olunması dövlətlərarası münasibətlərin inkişafını irəliyə aparmaqla yanaşı, regional tranzitlərin diversifikasiyasına da mühüm töhfə verəcək.

*E.CƏFƏRLİ*

# Qlobal Cənub Gənclər Platformasının coğrafiyası genişləndirilir

## Bakıda Platformanın ilk beynəlxalq tədbiri keçirilib







Bakıda keçirilən Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Dekolonizasiya prosesində gənclərin şəhərsalmada rolu" mövzusunda beynəlxalq konfrans keçirilib. Tədbir Qlobal Cənub Gənclər Platformasının ilk beynəlxalq tədbiri kimi yadda qalıb. Konfransda BMT-nin Gənclər Ofisi də ilk dəfə nümayəndə heyəti ilə təmsil olunub. Tədbirdə indiki və keçmiş müstəmləkə ölkələrini təmsil edən 22 dövlətdən gənc tədqiqatçılar, hüquqşünaslar, səhiyyə və siyasət sahəsi üzrə mütəxəssislər, beynəlxalq təşkilat nümayəndələri, gənclər təşkilatlarının rəhbərləri və universitet tələbələri iştirak ediblər.

Konfrans çərçivəsində kolonializm və neokolonializmin davam edən təsirlərinə qarşı daha güclü və koordinasiyalı mübarizə mexanizmlərinin yaradılması, Qlobal Cənub Gənclər Platformasının şəbəkələşdirilməsi və beynəlxalq həmrəyliyin real təşəbbüslərə çevrilməsi məsələləri müzakirə olunub. Həmçinin, gənclərin daha effektiv təşkilatlanması, azlıqların üzləşdiyi sistemli ayrı-seçkilik və hüquq pozuntularının beynəlxalq gündəmdə daha çox diqqətə çatdırılması, eləcə də bu problemlərə qarşı nəticəyönümlü beynəlxalq təşəbbüslərin irəli sürülməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirdə çıxış edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, tədbirdə qəbul olunan qərarlar sırasına Qlobal Cənub Gənclər Platformasına yeni üzvlərin qəbulu, gələcəkdə hansı beynəlxalq təşkilatlarla sıx tərəfdaşlıq əlaqələrinin qurulacağı, eləcə də növbəti tədbirlərin hansı ölkələrdə və hansı qlobal platformalar çərçivəsində keçiriləcəyi kimi mühüm məsələlər daxildir. "Bu gün platformanın coğrafiyasının genişlənməsi və bura müxtəlif ölkələrdən yeni üzvlərin qoşulması gözlənilir. İclasda müstəqil dövlətlərdən Misirin, eləcə də Niderland Krallığının dənizaşırı ərazisi olan Sint-Marten adasının və digər xarici regionların nümayəndələrinin iştirakı planlaşdırılır. Biz qlobal urbanizasiya, şəhərsalma və dayanıqlı inkişaf siyasətinin formalaşdırılması istiqamətində müzakirələrimizi aktiv şəkildə davam etdiririk",- deyə A. Abbasov vurğulayıb.

Beynəlxalq münasibətlər üzrə müstəqil ekspert Moussa Abderahman isə deyib ki, Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində dayanıqlı və inklüziv urbanizasiya məsələlərinin müzakirəsi, xüsusilə əhəmiyyətlidir: "Hesab edirəm ki, bu platformadakı müzakirələr yalnız konfrans salonları ilə məhdudlaşmamalı, real və konkret regional fəaliyyətlərə çevrilməlidir". O bildirib ki, gənclər təhsil, innovasiya və sahibkarlıq vasitəsilə qlobal şəhərsalma proseslərində mühüm rol oynaya bilərlər: "Hazırda bir çox gəncin iqlimə uyğun, daha ucuz və əlçatan yaşayış modelləri üzərində çalışdığını müşahidə edirəm".

"Global Family Media" şirkətinin əməliyyatlar üzrə direktoru, "Rwanda Gender Media Council"un idarə heyətinin üzvü Umuhoza Natete Verite çıxışında qeyd edib ki, şəhərsalmanın dekolonizasiyası anlayışı çox vacibdir. Bu şəhərləri yerli reallıqlar, yerli texnologiyalar və yerli arzular əsasında yenidən təsəvvür etmək deməkdir. Şəhərsalmanın dekolonizasiyası inklüziv, dayanıqlı, mədəni köklərə bağlı və insan ləyaqətini mərkəzə qoyan şəhər mühitlərinin yaradılmasını nəzərdə tutur. Bu transformasiyada gənclərin rolu son dərəcə vacibdir. Onun sözlərinə görə, gələcəyin şəhərləri yalnız "ağıllı" və müasir olmamalıdır, eyni zamanda, inklüziv olmalı, insanmərkəzli inkişaf etməlidir. Həmçinin onları formalaşdıran mədəniyyətlərə dərin şəkildə bağlı qalmalıdır. Elə şəhərlər yaradaq ki, onlar sadəcə ölçü baxımından böyüməsin, həm də ədalət, dayanıqlılıq və insanlıq baxımından inkişaf etsin. "Dekolonizasiya şəhərlərin necə dizayn edildiyini və necə idarə olunduğunu yenidən düşünmək deməkdir. Postkolonial cəmiyyətlərdə bir çox şəhər sistemi kolonial strukturlardan miras qalıb və çox vaxt ayrı-seçkiliyi prioritetləşdirib. Şəhərsalmanın dekolonizasiyası isə şəhərlərin yerli mədəniyyəti, icma ehtiyaclarını və sosial ədaləti əks etdirməsini təmin etməkdir",- deyə Umuhoza Natete Verite vurğulayıb.

"Qlobal Cənubdan olan gənclər kimi biz tarixən yaşanmış ədalətsizliklərin yaddaşını və daha ədalətli gələcək vizyonunu daşıyırıq. Biz işsizlik, məcburi köç, bərabərsizlik və iqlim risklərinin reallıqlarını yaxşı anlayırıq. Amma, eyni zamanda, yaradıcılıq, dayanıqlılıq, innovasiya və ümid də daşıyırıq". Bu fikirləri isə Qlobal Cənub Gənclər Platformasının Keniyadan olan üzvü Brayan Nqiqi Mutoni söyləyib. O bildirib ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası kimi platformalar və digər təşəbbüslər müxtəlif gənc səslərin bir araya gəlməsi, təcrübə mübadiləsi aparması və qlobal şəhər siyasətinə töhfə verməsi üçün vacib imkanlar yaradır.

Çıxış edən siyasi elmlər üzrə tədqiqatçı Mpiqa İvala Angelika Dezire qeyd edib ki, şəhərlərimizi dayanıqlı, davamlı və xüsusilə inklüziv etmək üçün qarşılaşdığımız çətinliklər mövcuddur. 2050-ci ildə dünya əhalisi 9,8 milyarda çatacaq. Bunun 90 faizi Qlobal Cənubdan olacaq və həmin il əhalinin 68 faizi şəhərlərdə yaşayacaq. Birləşmiş Millətlər Təşkilatının proqnozları bunu açıq şəkildə göstərir. Onun sözlərinə görə, Afrikada urbanizasiya prosesi çox sürətlə gedir və bunun əsas səbəblərindən biri kənddən şəhərə köçdür. Qlobal Cənub ölkələrində urbanizasiyanın dekolonizasiyası üçün, ilk növbədə, torpaq hüquqlarının tanınması və geniş şəkildə sənədləşdirilməsi vacibdir.

Tədbirdə çıxış edən digər natiqlər gənclərin qlobal urbanizasiya proseslərində, sosial ədalətin təmin olunmasında və inklüziv şəhərsalma modelinin formalaşmasında mühüm rol oynadığını vurğulayıblar. Bildirilib ki, Qlobal Cənub Gənclər Platforması beynəlxalq əməkdaşlığın genişləndirilməsi və ortaq təşəbbüslərin gücləndirilməsi üçün yeni imkanlar yaradır.

*Nardar BAYRAMLI*

# WUF tarixində daha bir ilk...



## Azərbaycanın təşəbbüsü ilə “WUF13 NGO Forum”u keçirilib

BMT-nin Ümumdünya Şəhərsalma Forumu (WUF13) çərçivəsində ilk dəfə “QHT Forumu: Qlobal tərəfdaşlıqlar və qərarvermə” (“WUF13 NGO Forum”) mövzusunda tədbir keçirilib. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən təşkil olunan forumda vətəndaş cəmiyyətinin inklüziv şəhər planlaşdırılması və davamlı şəhər inkişafında rolu müzakirəyə çıxarılıb.

Çıxış edən BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax Azərbaycanın milli şəhərsalma forumunda iştirakından məmnunluğunu ifadə edib. O, Azərbaycanın yenidənqurma prosesində icmaların və müxtəlif tərəflərin fəal şəkildə cəlb olunduğunu görməkdən məmnun olduğunu bildirib. A.Rossbax əlavə edib ki, QHT-lərin iştirakı olmadan qlobal mənzil böhranının həlli mümkün deyil. “Şəhərsalma planları iştirakçılıq prinsipləri əsasında hazırlanmalı, yerli səviyyədə müxtəlif sektorları bir araya gətirən idarəetmə mexanizmləri qurulmalıdır. Yerli və milli səviyyələr arasında koordinasiya təmin edilməli, vətəndaş cəmiyyəti, akademik dairələr, icma təşkilatları və özəl sektor qərar qəbuletmə prosesinə cəlb olunmalıdır”, - deyə o bildirib.

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev COP29 çərçivəsində yaradılan Qlobal Cənub QHT Platformasının artıq uğurlu beynəlxalq təşəbbüsə çevrilməkdə olduğunu bildirib: “Bu il həmin platformanın Baş Assambleyası təsis olunub və mən bu təşəbbüsün gələcəyinə böyük ümidlə baxıram. Şəhərlərlə bağlı çağırışlar - sürətli urbanizasiya, əhali artımı və iqlim dəyişiklikləri artıq bütün dövlətlərin gündəmindədir. Azərbaycan da iqlim dəyişikliklərinin təsirlərini hiss edir”.

BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin direktoru Dima Al-Katib qeyd edib ki, şəhərlərin dayanıqlı inkişafı istiqamətində qlobal çağırışların həlli üçün vətəndaş cəmiyyəti institutlarının iştirakı və çoxtərəfli tərəfdaşlıqlar mühüm əhəmiyyət daşıyır. Onun sözlərinə görə, Azərbaycan qlobal təşəbbüslərin və beynəlxalq şəbəkələrin inkişafına töhfə verir. Şəhərlər artıq dayanıqlı inkişaf gündəliyinin əsas mərkəzinə çevrilib. “Dayanıqlı İnkişaf Məqsədlərinin əhəmiyyətli hissəsinin uğuru və ya uğursuzluğu məhz şəhərlərdə müəyyən olunacaq. Hazırda dünya əhalisinin yarıdan çoxu şəhərlərdə yaşayır və 2050-ci ilə qədər bu göstəricinin 70 faizə çatacağı proqnozlaşdırılır. Gələcəkdə urban artımın təxminən 90 faizi Qlobal Cənub ölkələrinin payına düşəcək”,- deyə Dima Al-Katib əlavə edib.

Qaçqınlar üzrə Ali Komissarlığın (UNHCR) sabiq icraçı direktoru, hazırda Malayziya hökumətinin dayanıqlı urbanizasiya üzrə müşaviri, Maimuna Mohd Şərif bildirib ki, QHT-lər yalnız qlobal forumların iştirakçısı deyil, həm də insanlar, siyasət və praktika arasında əlaqələndirici qüvvədir. “Vətəndaş cəmiyyəti təşkilatları hökumətlər, beynəlxalq təşkilatlar, özəl sektor və yerli icmalar arasında mühüm körpü rolunu oynayır. Yalnız dövlət və özəl sektor deyil, insanlar da bu tərəfdaşlığın əsas hissəsi olmalıdırlar”, - deyə o vurğulayıb.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İdarə Heyətinin sədri Aygün Əliyeva son illərdə Azərbaycanın vətəndaş cəmiyyəti sahəsində mühüm beynəlxalq təşəbbüslərin və həmrəylik platformalarının formalaşdığı məkana çevrildiyini bildirib. “Beynəlxalq tədbirlər Azərbaycanın yalnız onlara ev sahibliyi edən ölkə kimi deyil, həm də müxtəlif regionlardan olan vətəndaş cəmiyyəti nümayəndələrini bir araya gətirən mühüm platformaya çevrildiyini göstərir. Bu platformalar dialoq, əməkdaşlıq və həmrəylik üçün yeni imkanlar yaradır”, - deyə A.Əliyeva qeyd edib.

A.Əliyeva diqqətə çatdırıb ki, WUF13-ün əsas mesajı təhlükəsiz və dayanıqlı şəhərlərin qurulmasıdır: “Bu gün şəhərlər iqlim dəyişiklikləri, sosial bərabərsizlik, miqrasiya və humanitar böhranlarla üz-üzədir. Belə bir dövrdə şəhərlərin gələcəyi yalnız beton və infrastruktur üzərində qurula bilməz. Bu, insan etimadı, ictimai iştirakçılıq və həmrəylik üzərində formalaşmalıdır”.

BMT-nin Məskunlaşma Proqramının İdarə Heyətinin keçmiş katibi və Hökumətlərarası Əlaqələr şöbəsinin rəhbəri Kristian Mensah bildirib ki, WUF tarixində ilk dəfə dünyanın müxtəlif ölkələrindən QHT-lər vahid platformada bir araya gələrək xüsusi məkan əldə ediblər: “Bu, onların sessiya çərçivəsində daha fəal iştirakı və fəaliyyətlərinin təmin olunması baxımından mühüm addımdır. WUF13 yerli və regional baxışların qlobal siyasət formalaşdırılması prosesinə inteqrasiyası üçün də yeni imkanlar yaradır”.

BMT-nin Millətlər Təşkilatının Təlim və Tədqiqat İnstitutunun Məsləhət Şurasının sədri Luis Qalyeqos qeyd edib ki, şəhərlər qadınlar, kişilər və uşaqlar üçün uyğun şəkildə qurulmalıdır. “Eyni zamanda, yaşlı insanlar və əlilliyi olan şəxslərin ehtiyacları xüsusi diqqət mərkəzində saxlanılmalıdır. Qərar qəbuletmə prosesi çoxtərəfli əməkdaşlıq şəraitində mürəkkəb və məsuliyyətli vəzifədir. Bununla belə, BMT dünya problemlərinin həlli üçün mövcud olan ən vacib platformalardan biridir və QHT-lər də bu prosesin ayrılmaz hissəsi olmalıdır”, - deyə Luis Qalyeqos əlavə edib.

*Nardar BAYRAMLI*

# “Ağıllı şəhər” və “ağıllı idarəetmə” modeli

## Azad ərazilərdə bələdiyyələr bu konsepsiya əsasında təşkil olunacaq

**Azərbaycanın işğaldan azad edilmiş ərazilərində görüləcək mühüm işlərdən biri də bələdiyyələrin yaradılması və bələdiyyə seçkilərinin keçirilməsidir. Hökumət hazırda bu bölgədə dövlət strukturlarının və xidmətlərin fəaliyyətini təmin etməklə yanaşı, müvafiq ictimai institutların, yerli özünüidarəetmə qurumlarının təsis edilməsi yönündə işlər aparır. Bu ərazilərdə optimal idarəetmənin təşkili, öz doğma evlərinə qayıdan sakinlərin yerli ictimai həyatda iştirakçılıq imkanlarının təşviq edilməsi baxımından təbii ki, bələdiyyələrin yaradılması zəruridir. “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” qanuna əsasən, bələdiyyələrin yaradılması üçün ilk növbədə işğalan azad olunmuş ərazilərdə inzibati ərazi dairələrinin, yaşayış məntəqələrinin müəyyən olunması və qeydiyyatı və s. işlər görülməlidir.”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nda keçmiş məcburi köçkünlərin ərazilərdə inşa edilmiş yaşayış məntəqələrinə qayıdışı çərçivəsində çoxşaxəli inkişafına yönəlmiş dayanıqlı icmaların yaradılması və bu icmaların ölkənin iqtisadi strukturuna inteqrasiyası, həmçinin idarəetmə sisteminin təmin olunması, effektiv və koordinasiyalı icra mexanizminin reallaşdırılması və digər tədbirlər nəzərdə tutulur.**

### Başlıca vəzifə və məsuliyyət - bələdiyyələr inkişafa töhfə verməlidir

Hazırda Qarabağ və Şərqi-Zəngəzurda 40-dan çox yaşayış məntəqəsinə əhalinin qayıdışı təmin olunub və 80 minə yaxın insan yaşayır. İnşa edilmiş yaşayış məntəqələrində əhalinin qeydiyyatı, ərazi planlaşdırma sənədlərinə uyğun ictimai institutların yaradılması istiqamətində işlər davam etdirilir. Bu proses paralel şəkildə aparılır, dövlət və özəl xidmət infrastrukturlarının təşkili ilə bərabər, bələdiyyə institutlarının formalaşdırılması üzrə müxtəlif təklif və ssenarilər ətrafında müzakirələr aparılır. Hökumət bu ərazilərdə vətəndaşlara xidmət edəcək elə bir idarəetmə sistemi qurmaq istəyir ki, həm iqtisadi-sosial inkişaf məqsədləri təmin olunsun, həm də çevik və modern xidmət infrastrukturu yaradılsın.

Prezident yanında İdarəçilik Akademiyasının müəllimi Xalidə Məlikova Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində təşkil edilən “Region Bələdiyyələrin Urbanizasiyası Forumu”nda bildirib ki, əsas ssenarilərdən biri işğaldan azad olunmuş ərazilərdə bələdiyyə idarəetməsinin fəaliyyətinin “ağıllı şəhər” konsepsiyası əsasında təşkilidir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri çərçivəsində gələcəkdə bələdiyyə institutunun formalaşdırılması mühüm istiqamətlərdən biri hesab edilir. Həmin ərazilərdə fəaliyyət göstərəcək bələdiyyələrin əsas məqsədi yerli əhalinin sosial problemlərinin həllinə dəstək olmaq, daha operativ və səmərəli xidmətlər təqdim etmək, infrastruktur layihələrini yeni formatda həyata keçirmək və bölgənin dayanıqlı inkişafını təmin etmək olacaq.



### İdarəetmənin çevikliyi, şəffaflığının artırılması

Hazırda Böyük Qayıdış Proqramına uyğun olaraq azad ərazilərdə Yeni Şəhər Gündəliyinin prinsipləri əsasında “ağıllı şəhərlər” və “ağıllı kəndlər”, “yaşıl enerji zonaları” və digər planlaşdırma layihələri uğurla icra olunur. “Ağıllı kənd” konsepsiyasının əsas komponentləri “ağıllı dövlət idarəçiliyi”, “ağıllı infrastruktur” və xidmətlər, eyni zamanda, “ağıllı təsərrüfat” və biznes mühitidir. Bu modellər mənzil təminatı, nəqliyyat, təhsil, səhiyyə, məşğulluq və sosial xidmətlərə çıxışla birlikdə tətbiq olunur ki, bu da davamlılıq, dözümlülük və inklüzivlik baxımından mühüm əhəmiyyət daşıyır. “Ağıllı kənd” və “ağıllı şəhər” prinsipləri yalnız fiziki bərpa ehtiyaclarını qarşılamır, həm də dayanıqlıq və davamlılıq kimi uzunmüddətli məqsədlərə xidmət edir.

İdarəetmənin çevikliyinin, həm də şəffaflığının artırılması baxımından “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyası çox vacibdir. Bu, eyni zamanda, vətəndaşların kommunal xidmətlərə əlçatanlığını asanlaşdırır. Çünki “ağıllı şəhər” və “ağıllı kənd” prinsipində kommunal, sosial xidmətlərə əlçatanlıq daha yüksək olur. Daha qısa müddətdə sosial xidmətləri daha keyfiyyətli şəkildə əldə etmək imkanları yaranır. Bu, həmçinin fərqli sektorların - sənaye, aqrar sahələrin inkişafı üçün də yaxşı imkanlar yaradır. Bu yanaşma bölgədə yaşayan insanların funksional icma institutları və dayanıqlı inkişaf ekosistemi yaratmalarını da təşviq etməyə fokuslanır. Bir çox ölkələrdə sosial, iqtisadi, nəqliyyat və digər inkişaf və xidmət sahələrində xüsusi səlahiyyətləri olan bələdiyyələr məhz “ağıllı idarəetmə” konsepsiyası əsasında dayanıqlılığı təmin edir, sosial rifahın artmasında səmərəli rol oynayır.

Azad edilmiş ərazilərin inkişafı ilə bağlı perspektiv planda bölgənin mövud resurslarının hərəkətə gətirilməsi, iqtisadi artımın təmin olunması, infrastrukturun inkişafı və saxlanlılması, ərazi planlaşdırılması və digər tədbirlər kompleks islahatlar çərçivəsində aparılacaq ki, burada yerli özünüidarə orqanlarının da üzərinə böyük məsuliyyət düşəcək. Ona görə də, bələdiyyə institutları da bu modellərin bir tərkib hissəsi olmaqla, inkişafa töhfə verə biləcək. Məhz bu prinsipləri nəzərə alaraq yerli özünüidarəetmə orqanlarının təşkilində də həmin modelin komponentlərindən istifadə məqsəduyğun hesab edilir.

*E.CƏFƏRLİ*

21 may 2026-cı il, cümə axşamı № 088 (7155)

# İki qardaşın yeni Anlaşması

## Azərbaycan və Türkiyə enerji səmərəliliyi üzrə əməkdaşlıq edəcək

**Mayın 18-də “Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Türkiyə Respublikasının Ətraf Mühit, Şəhərsalma və İqlim Dəyişikliyi Nazirliyi arasında binalarda enerji səmərəliliyi üzrə texniki əməkdaşlıq haqqında Anlaşma Memorandumu” imzalanıb. Sənədi Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Murat Kurum imzalayıblar. Memorandum binalarda enerji səmərəliliyinə dair qanunvericilik, “Binalarda Enerji Səmərəliliyi Tətbiqi” üzrə hesablama metodologiyası, tikinti prosesində “Enerji Səmərəliliyi Sertifikatı” mərhələləri və bu istiqamətdə təlim proqramlarının təşkili, bərpa olunan enerji mənbələrindən istifadə üzrə təcrübə mübadiləsinin aparılması, qarşılıqlı iclasların, konfransların, pilot təlimlərin, tədqiqat proqramlarının və səfərlərin təşkili üzrə əməkdaşlığı əhatə edir. Sənəd hər iki tərəfin aidiyyəti dövlət qurumlarının və təşkilatların nümayəndələrindən ibarət İşçi Qrupunun yaradılmasını nəzərdə tutur.**

### Beş milli prioritetdən biri

Azərbaycan və Türkiyə arasında neft-qaz, elektrik enerjisi və enerji bağlantıları sahələrində uzunmüddətli strateji enerji tərəfdaşlıq hər il genişlənməkdədir. Hazırda əməkdaşlığın yeni istiqaməti olan enerji səmərəliliyi resursların idarə olunmasında yeni təcrübə mübadiləsini nəzərdə tutur. Türkiyə enerjinin səmərəli idarə edilməsi sahəsində yaxşı təcrübəyə malikdir, enerjinin emalı, saxlanması, paylanması və infrastrukturların təşkili üzrə möhkəm arxitektura qurub. Bu baxımdan Azərbaycanın “Enerji Effektivliyi Fondu” qardaş ölkənin mövcud təcrübəsindən yararlanmaqla risklərə qarşı çevik idarəetmə strukturu yarada bilər.

Enerji səmərəliliyi həm də müasir dövrdə ekoloji və iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən amillərdən biridir. Həmin siyasət tədbirləri çərçivəsində müasir texnologiyalardan və innovasiyalardan, xüsusilə də “ağıllı idarətmə sistemləri”ndən geniş istifadə etməklə, evlərin və müəssisələrin enerji istehlakını azaltmaq, istehsalı artırmaq və resursların daha səmərəli istifadəsini təmin etmək mümkün olur. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədində ölkəmizin beş milli prioritetindən biri kimi “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” müəyyən olunub. Bu prioritet çərçivəsində enerji səmərəliliyinin yüksəldilməsi, bərpaolunan enerji istehsalı həcmlərinin artırılması nəzərdə tutulub.

Türkiyədə tətbiq olunan “ağıllı termostatlar”, mərkəzləşdirilmiş idarəetmə və “ağıllı ev sistemləri” enerji istehlakını real vaxtda izləməyə və lazımsız istehlakı azaltmağa kömək edir. Eləcə də, günəş enerjisi panelləri sahəsində mövcud infrastrukturlar təmiz enerji istehsalına imkan verir, xərcləri azaldır və ekoloji təsiri minimuma endirir. Habelə, müasir külək turbinləri daha az sahə tutaraq daha çox enerji istehsal etməyə imkan verir. Bu baxımdan qardaş ölkələr arasında əməkdaşlıq ortamüddətli dövrün hədəflərinə çatmaqda mühüm rol oynayacaq. Birgə mübadilə, həmçinin müasir tələblərə cavab verən yeni elektrik stansiyalarının tikintisi, istifadədə olan stansiyaların modernizasiyası, energetika sistemində itkilərin azaldılması, elektrik stansiyalarının xüsusi sərfiyyatının müasir normalara çatdırılması istiqamətində də mühüm fayda verəcək.




### “Yaşıl enerji” də Türkiyə quruculuğu

Qardaş ölkələrin anlaşmasında yer alan hədəflərdən biri də bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlığı fəal şəkildə inkişaf etdirmək, təmiz enerji sahəsində qlobal tərəfdaşlığın formalaşmasını təmin etməkdir. Hər iki ölkənin tanınmış enerji şirkətləri arasında əldə edilmiş amlaşmalara əsasən, tərəflər “yaşıl enerji” mənbələrinin istehsalı, emalı və ötürülməsi, bu sahədə güc infrastrukturlarının qurulması, dayanıqlı potensialın şaxələndirilməsi istiqamətində layihələr icra edəcək.

Hazırda Türkiyə və Azərbaycan enerji infrastrukturlarının inteqrasiyasını başa çatdırmaq və enerji ixracını, xüsusilə Naxçıvan vasitəsilə həyata keçirmək üzərində işləyir. Naxçıvanda bərpa olunan enerjiyə əsaslanan istehsal müəssisəsinin açılması da Türkiyənin enerji bazarına qoşulmaq üçün nəzərdə tutulub. Azərbaycan və Türkiyə hökumətlərinin üzvləri gələcək perspektivləri nəzərdən keçirərək Naxçıvan-Qars tranziti üzrə Avropaya “yaşıl enerji” tədarükü ilə bağlı müştərək layihələrin inkişaf etdirilməsini qərara alıb. Bu plana uyğun olaraq, Naxçıvan üzərindən “Türkiyə-Azərbaycan Qarşılıqlı Əlaqə” layihəsinin icrası, Gürcüstan-Azərbaycan-Türkiyə-Bolqarıstan-Avropa” yaşıl dəhlizinin çəkilişi üzrə müvafiq addımların atılması razılaşdırılıb. İki qardaş ölkə arasında “yaşıl enerji” dəhlizinin yaradılması regionun və Avropanın enerji təhlükəsizliyi üçün böyük töhfə verəcək.

Türkiyə şirkətlərinin işğaldan azad edilmiş ərazilərdə bərpaolunan enerji layihələrinə də marağı böyükdür. Həmin bölgədə “yaşıl güclərin” potensialının yüksək olması nəzərə alınaraq investorların yaşıl layihələrdə təmsil olunması gözlənilir. Həmçinin, türk şirkətləri işğaldan azad edilmiş ərazilərdə “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyasının inkişaf etdirilməsinə, inzibati və yaşayış binalarının avadanlıqlarla təchizatında da iştirak etmək imkanlarını artırmaq niyyətindədir.

*E.CƏFƏRLİ*

# Trampın ardınca Putin...

## Rusiya prezidenti də Çinə səfər edib

**ABŞ prezidenti Donald Trampın ardından Rusiyanın dövlət başçısı Vladimir Putin də Çinə səfər edib. Qeyd edək ki, bu, 2026-cı ildə Rusiya prezidentinin Çinə ilk səfəridir. Ötən ilin mayında və sentyabrında Çində səfərdə olan Putin bu il də “ənənəyə” sadiq qalıb. Xatırladaq ki, bir sıra analitiklər bu səfəri Rusiya-Ukrayna və Yaxın Şərq müharibələrinin “açar səfəri” adlandırır. Bildirilir ki, səfər zamanı pərdəarxası danışıqlar daha çox münaqişələrin həllində ABŞ - Rusiya - Çin ortaq nöqtələrinin tapılmasına xidmət edir.**

### 40 nəfərlik heyət, imzalanan 40 sənəd...

Rusiya prezidenti Pekinə geniş nümayəndə heyəti ilə gəlib - onu nazirlər və iş adamları da daxil olmaqla təxminən 40 nəfər müşayiət edir. Onların arasında Mərkəzi Bankın sədri Elvira Nabiullina, maliyyə naziri Anton Siluanov, iqtisadi inkişaf naziri Maksim Reşetnikov, elm və ali təhsil naziri Valeri Falkov, Prezident Administrasiyasının rəhbərinin müavini Maksim Oreşkin, RDIF-in baş direktoru Kirill Dmitriyev, VTB və Sberbank rəhbərləri Andrey Kostin və Herman Qref də var.

Putin və Si Cinpin arasında danışıqlar Pekindəki Böyük Xalq Yığıncaqları Zalında baş tutub - qarşılanma mərasimi isə Tiananmen meydanında baş tutub. Kremlin məlumatına görə, iki gün davam edən səfər çərçivəsində iki ölkə arasında təxminən 40 ikitərəfli sənəd imzalanıb.

Danışıqların əvvəlində Çin lideri Moskva ilə Pekin arasındakı münasibətlərin “tədricən hazırkı yüksək səviyyəyə çatdığını və bu siyasi qarşılıqlı etimadın və strateji əməkdaşlığın davamlı şəkildə dərinləşdirilməsi prosesində onların sarsılmaz iradəsinin sayəsində mümkün olduğunu bildirib. Rusiya prezidenti isə Çinlə əməkdaşlığı beynəlxalq arenada əsas sabitləşdirici amillərdən biri adlandırıb. “Hazırkı gərgin beynəlxalq vəziyyətdə sıx əlaqələrimizə xüsusilə ehtiyac var”, - deyə Putin vurğuladı.

Qapalı qapılar arxasında keçirilən təkbətək danışıqlardan sonra nümayəndə heyətlərinin geniş tərkibdə görüşü baş tutub. Geniştərkibli görüşdən sonra Putin və Si Cinpin Hərtərəfli Tərəfdaşlıq və Strateji Qarşılıqlı Əlaqənin Daha da Gücləndirilməsi, Qonşuluq, Dostluq və Əməkdaşlıq Münasibətlərinin Dərinləşdirilməsi haqqında Birgə Bəyannamə, eləcə də, Çoxqütblü Dünyanın və Yeni Tipli Beynəlxalq Münasibətlərin Qurulması haqqında Birgə Bəyannamə qəbul ediblər.

### Putin: Çin bazarını bütün növ yanacaqlarla fasiləsiz tədarükünü təmin etməyə hazırıq

Rusiya Prezidenti baş tutan danışıqları məzmunlu adlandırıb, dialoqun etimad atmosferində keçirildiyini bildirib. Rusiya prezidenti Moskva-Pekin münasibətlərinin görünməmiş səviyyəyə çatdığını deyib. Ölkələr arasında ticarət 2000-ci illərin əvvəllərindən bəri 30 dəfədən çox artıb. Putin Rusiya ilə Çin arasında demək olar ki, bütün ticarət əməliyyatlarının rubl və yuanla aparıldığını xatırladıb. Putin enerji əməkdaşlığını Rusiya-Çin iqtisadi əməkdaşlığının hərəkətverici qüvvəsi kimi qeyd edib. “Yaxın Şərqdəki böhran fonunda Rusiya etibarlı resurs təchizatçısı, Çin isə məsuliyyətli istehlakçı kimi rolunu qorumağa davam edir”, - deyə o bildirib.

O, Rusiyanın Çin bazarına bütün növ yanacaqların fasiləsiz tədarükünü təmin etməyə hazır olduğunu vurğulayıb. Rusiya lideri Rusiya və Çinin vətəndaşları üçün vizasız rejimi davam etdirəcəklərini bildirdi. “Sizin təşəbbüsünüzlə ölkələrimizin vətəndaşları üçün qarşılıqlı vizasız rejimin tətbiqi humanitar əlaqələrin genişləndirilməsinə əlavə təkan verdi. Biz bu təcrübəni mütləq davam etdirəcəyik”, - deyə Putin əlavə edib: “Məqsədimiz Rusiya və Çin xalqlarının rifahı və çiçəklənməsidir. Bu sarsılmaz təməllər münasibətlərimizin dəfələrlə güc və dözümlülük sınağından uğurla keçməsinə imkan verdi”.




### Si Cinpin: Rusiya və Çin arasında münasibətlərin hazırkı səviyyəyə çatmasının səbəbi...

Çin lideri Si Cinpin isə Rusiya və Çin arasında münasibətlərin hazırkı səviyyəyə çatmasının səbəbinin qarşılıqlı siyasi etimadın və strateji əməkdaşlığın daim dərinləşməsi olduğunu vurğulayıb. Çin lideri həmçinin Moskva və Pekin arasındakı münasibətlərin daha məhsuldar və sürətləndirilmiş yeni mərhələyə qədəm qoyduğunu qeyd edib. Si Cinpin Yaxın Şərqdə hərbi münaqişənin yenidən başlamasının qəbuledilməz adlandırıb. “Yaxın Şərqdə və Fars körfəzi bölgəsində vəziyyət müharibə ilə sülh arasında kritik bir mərhələdədir. Hərbi əməliyyatlara mümkün qədər tez bir zamanda tamamilə son qoymaq vacibdir; müharibənin yenidən başlaması qəbuledilməzdir. Danışıqlar yoluna riayət etmək xüsusilə vacibdir”, - deyə o bildirib.

### İki Birgə Bəyyanamə imzalanıb...

Rusiya Prezidenti Vladimir Putin və Çin Prezidenti Si Cinpin Rusiya və Çin arasında hərtərəfli tərəfdaşlıq və strateji əməkdaşlığın daha da gücləndirilməsi və mehriban qonşuluq, dostluq və əməkdaşlıq münasibətlərinin dərinləşdirilməsi ilə bağlı birgə bəyanat imzalanıb. Rusiya Prezidentinin köməkçisi Yuri Uşakovun sözlərinə görə, bu, Rusiya və Çin arasında çoxşaxəli ikitərəfli əlaqələrin bütün spektrinin əsas inkişaf yollarını, aktual beynəlxalq məsələlərə ortaq baxışı və qlobal məsələlərdə əməkdaşlığın əsas formatlarını müəyyən edən hərtərəfli siyasət sənədidir.

“30 ildir ki, külək və yağışla mülayimləşən münasibətlərimiz zamanın diktəsinə tabe olaraq daim yeni zirvələrə yüksəlib. İndi onlar yeni dövrdə hərtərəfli tərəfdaşlıq və strateji qarşılıqlı fəaliyyətin tarixi zirvəsindədirlər və haqlı olaraq böyük dövlətlər arasında yeni tip münasibətlərin modeli hesab olunurlar”, - Si Cinpin danışıqlardan sonra keçirilən mətbuat konfransında jurnalistlərə bildirib.

### Ruslara gələn ilin sonuna qədər viza güzəşti...

Çin ruslar üçün vizasız səyahət müddətini 2027-ci ilin sonuna qədər uzadacaq. Bu qərar ötən ilin 15 sentyabrından qüvvədədir. Çin Xarici İşlər Nazirliyinin sözçüsü Quo Ciakun brifinqdə bildirib ki, Çin və Rusiya arasında insanlar arasında mübadiləni daha da asanlaşdırmaq üçün Çin Rusiya vətəndaşları üçün vizasız səyahət müddətini 31 dekabr 2027-ci ilə qədər uzatmaq qərarına gəlib. Qo Ciakun qeyd edib ki, beynəlxalq pasportlara malik Rusiya vətəndaşları Çinə 30 günə qədər vizasız daxil ola biləcəklər. Vizasız rejim turizm, işgüzar səfərlər, tranzit və şəxsi məqsədlər, o cümlədən qohumları və dostları ziyarət etmək üçün səyahətlərə şamil edilir.

Vurğulayaq ki, 2025-ci ildə Çinə 2 milyondan çox rus gəlib. Bunun qarşılığında isə bir milyondan çox Çin vətəndaşı Rusiyaya səfər edib.

*SADİQ*

# Yaxın Şərq nüvə təhlükəsi ilə üz-üzə...

## AEBA BƏƏ-dəki "Barakah" AES-ə hücumla bağlı xəbərdarlıq edib

**Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) mayın 17-də "Barakah" Atom Elektrik Stansiyasına (AES) hücum edən pilotsuz uçuş aparatları, həmçinin sonradan zərərsizləşdirilən daha altı dron İraq ərazisindən buraxılıb. Bu barədə BƏƏ Müdafiə Nazirliyi məlumat yayıb. Hadisə baş verən gün hücumun İran tərəfindən edildiyi açıqlansa da, araşdırmalar nəticəsində dronun İraq ərazisindən göndərildiyi dəqiqləşdirilib. PUA-nın "Barakah" AES-in yaxınlığındakı generatora çırpılması nəticəsində yanğın baş verib.**

### PUA-lar İraq ərazisindən buraxılıb

Həmin vaxt ölkənin HHM qüvvələri hava məkanını qərb sərhədi istiqamətindən pozan üç pilotsuz aparatı qeydə alıb, onlardan ikisi havada məhv edilib, üçüncüsü isə AES-in yanındakı elektrik generatoruna zərbə endirib. İraq ərazisindən edilən hücum zamanı kritik əhəmiyyətli obyektlər zərər görməyib, heç bir təlafat baş verməyib. Lakin gələcəkdə bu obyektə hücumların davam etməsi ciddi təhlükələr yarada bilər.

BMT-nin nüvə nəzarəti orqanı - Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) rəhbəri Rafael Qrossi Birləşmiş Ərəb Əmirliklərindəki "Barakah" AES-ə birbaşa hücumun ciddi radioaktiv nəticələrə səbəb ola biləcəyi barədə xəbərdarlıq edib. BMT Təhlükəsizlik Şurasının obyekti hədəf alan son dron hücumundan sonra təcili iclasında çıxış edən Rafael Qrossi vəziyyətin çox narahatedici olduğunu bildirib: "Bu, Yaxın Şərqdə bir nüvə obyektidir və hücumun nəticələri çox ağır ola bilər". Qrossi vurğulayıb ki, Əbu-Dabi Əmirliyində - eyni adlı paytaxtdan təxminən 300 kilometr məsafədə yerləşən "Barakah" AES təzə və işlənmiş yanacaq da daxil olmaqla minlərlə kiloqram nüvə materialı olan obyektdir. "Barakah" AES-ə hücum halında, birbaşa zərbə ətraf mühitə çox yüksək radioaktivlik buraxılmasına səbəb ola bilər", - deyə o bildirib.

Qrossi əlavə edib ki, xarici elektrik təchizatı xətlərinə dəyən ziyan da ciddi risklər yarada və potensial olaraq reaktorun nüvəsinə zərər verə bilər. O, həmçinin xəbərdarlıq edib ki, hər iki ssenari üçün təcili qoruyucu tədbirlər, o cümlədən təxliyə, sığınacaq və bir neçə yüz kilometrə qədər uzanan məsafələrdə sabit yoddan istifadə tələb olunacaq.



### BMT ekspertləri Yaxın Şərqdə nüvə enerjisinin riskləri barədə nə düşünür?

Məlumdur ki, elektrik enerjisinə qlobal tələbat çoxaldıqca, atom elektrik stansiyalarının populyarlığı da artır. Yaxın Şərqdə bir neçə ölkə regional təhlükəsizlik, iqlim şəraiti və beynəlxalq əməkdaşlıq kimi ciddi məsələləri balanslaşdıraraq nüvə enerjisi layihələrini qiymətləndirir və ya inkişaf etdirir. Bununla belə, BMT-nin ekspertləri Yaxın Şərqdə nüvə enerjisinin yaratdığı risklər barədə qənaətlərini bölüşüblər. "AES-lər enerji tələbatları, texnoloji innovasiya və inkişaf edən təhlükəsizlik mənzər"əsinin kəsişməsindədir. Bu, böyük bir fürsət yaradır", -deyə Beynəlxalq Atom Enerjisi Agentliyinin (AEBA) baş koordinatoru Şota Kamişima deyir. O əlavə edib: "Düzgün inkişaf etdirildikdə, nüvə enerjisi davamlı inkişafı dəstəkləyə, enerji dayanıqlığını artıra və hətta regional əməkdaşlıq üçün platforma rolunu oynaya bilər". Ekspert məlumat verib ki, "Barakah" AES-in ölkənin daxili enerji ehtiyaclarının təxminən 25 faizini ödədiyi Birləşmiş Ərəb Əmirlikləri də daxil olmaqla, 33 ölkə 2050-ci ilə qədər nüvə enerjisi güclərini üçqat artırmaq məqsədini dəstəkləyib. Hazırda 31 ölkədə 416 nüvə reaktoru dünya elektrik enerjisinin təxminən 10 faizini təmin edir. Daha 63 reaktor tikilməkdədir və təxminən 60 ölkə kiçik modul reaktorlar da daxil olmaqla nüvə enerjisinin tətbiqini nəzərdən keçirir.

"Yaxın Şərq və Şimali Afrika bölgəsində enerji tələbatı 2000-ci ildən 2024-cü ilə qədər üç dəfə artıb. Süni intellekt və iqtisadi transformasiya sayəsində bu tələbat artmağa davam edəcək". Bu fikirləri isə Birləşmiş Millətlər Təşkilatının Silahsızlanma Tədqiqatları İnstitutunun (UNIDIR) tədqiqatçısı Almuntaser Albalawi bildirib. O əlavə edib: "Regionun duzsuzlaşdırma və soyutma üçün unikal ehtiyacı var və bu da sabit enerji mənbələrinə olan etimadı daha da aktuallaşdırır". Bütün bu tələblərə baxmayaraq, Yaxın Şərqdəki geosiyasi mühit bölgədə nüvə enerjisinin inkişaf etdirilməsi və istismarının təhlükəsizliyi ilə bağlı suallar doğurur.

"AES-dən danışarkən, onun həyat dövrü ağlabatan - tikintidən istismardan çıxarılmasına qədər təxminən 75 illik bir zaman vahidi olmalıdır", -deyə Prinston Universitetinin baş tədqiqatçısı Ziya Mian iddia edir. "Bütün bu müzakirələrin mərkəzi bir sual ətrafında cəmləşir - son 75 ildə Yaxın Şərqdə vəziyyət necə olub? Gələcəkdə onun necə inkişaf edəcəyini gözləyirik?", -deyən amerikalı ekspert 1967 və 1973-cü illərdəki ərəb-İsrail müharibələrinə, 1980-ci ildən 1988-ci ilə qədər olan İran-İraq müharibəsinə, daha sonra isə ABŞ-İraq müharibələrinə, ardınca Suriyada vətəndaş müharibəsinə işarə edib. O, növbəti 75 ilin son 75 ildən kökündən fərqli olacağı ehtimalının az olduğunu da vurğulayıb.

### "Barakah" ərəb ölkələrində ilk AES-dir

Təhlükəsizlik və siyasi mülahizələrlə yanaşı, Yaxın Şərqdə nüvə enerjisinin inkişafı üçün iqlim və ətraf mühitin uyğunsuzluğu ilə bağlı narahatlıqlar da mövcuddur. Ümumdünya Meteorologiya Təşkilatının (ÜMT) 2024-cü ildə dərc etdiyi ərəb ölkələrində iqlimin vəziyyətinə dair ilk hesabata görə, Yaxın Şərq qlobal orta göstəricidən iki dəfə sürətli istiləşir. Bu əsrin sonuna qədər temperatur beş dərəcə Selsi arta bilər ki, bu da nüvə elektrik stansiyalarının fəaliyyətinə birbaşa təsir göstərir. Professor Mian deyir ki, Yaxın Şərq insanların açıq havada yaşaması üçün praktik olaraq yaşayışa yararsız hala düşəcək. O əlavə edib: "Həmçinin nüvə elektrik stansiyalarının istilik mübadiləsi ehtiyacları olduqca böyükdür və onların soyutma sularına tələbatı da çoxdur. Məsələn, hər yay insanların soyutma üçün ən çox elektrik enerjisinə ehtiyacı olduqda, Fransa xarici temperatur çox yüksək olduğu üçün nüvə elektrik stansiyalarını bağlamalı olur".

Xatırladaq ki, "Barakah" AES Birləşmiş Ərəb Əmirliklərində 2020-ci ildə fəaliyyətə başlayıb. Əbu-Dabi Əmirliyinin Əl Dəfrah bölgəsində yerləşən AES-in 60 il ərzində elektrik enerji istehsal edəcəyi gözlənilir. Birləşmiş Ərəb Əmirlikləri dünyada AES istifadə edən 33-cü, ərəb dövlətlərinin arasında isə birinci ölkədir.

*N.BAYRAMLI*

# Ssenaridən kənar: Həyatın real səhnəsində Fəxrəddin Manafovla üz-üzə...





Həyat bəzən bizə elə anlar bəxş edir ki, zamanın necə axdığını unudur, sadəcə o anın enerjisinə təslim oluruq. Qarabağ Universitetində Azərbaycan kinosunun və teatrının əfsanəsi Fəxrəddin Manafovla keçirilən görüş məhz belə bir unudulmaz tarixə çevrildi. Bu görüş mənim üçün sənətini sevdiyim bir sənətkarla görüşdən ziyadə peşəmlə duyğularımın qovuşduğu bir sınaq meydanı oldu.

Hər şey ustad aktyorun zala verdiyi o qəfil sualla başladı: "Aranızda həyatında heç oyun oynamayan var?"

Bütün zal sükuta qərq olarkən ən arxa sıradan tək bir əl qalxdı yuxarı - mənim əlim. O an səmimiyyətim bəlkə də onun diqqətini çəkdi. Ardınca gələn "Dünyaya göz açanda ilk kimi görmüsən?" sualına anamın sözünə görə "həkimi" deyə cavab verəndə Fəxrəddin müəllim zarafatla "Ola bilməz, anana zəng et, gəl yanıma" dedi. Bəlkə də bu anın özü elə taleyin oyunu idi. Belə ki, akt zalı aşağı mərtəbədə olduğu üçün telefon zəngini alındıra bilmədik. Ustadın "Bəxtin gətirdi, keç otur" sözünə qarşı içimdəki o jurnalist inadı dilləndi: "Çıxanda zəng edərik..."

Zalda bu dəfə gülüş səsləri ucaldı, hamı bu mənzərəni seyr edir, nə olduğunu anlamağa çalışırdı.

Bir az sonra əlimdə kamera onu çəkdiyimi görəndə baxışlarımız yenidən toqquşdu. "Peşəm jurnalistdir" dediyimdə xarakterik təbəssümü ilə "Bunu bayaqdan desənə!" deyə pıçıldadı.

Müzakirə dərinləşdikdə Fəxrəddin müəllim zala müraciətlə, "Bu oyun oynamayan qızdan başqa hamı həyatında oyun oynayıb" deyə fikir yürütdü. Tam o anda zalın aşağı tərəfindən rektorumuz Şahin müəllimin nidası ucaldı: "Bəlkə elə az öncəkilər də bir oyun idi?"

Sual havada asılı qalmadı. Yuxarı başdan, içimdən gələn o ani cəsarətlə cavab verdim: "Bəlkə də sizə daha yaxın olmaq üçün oynadım bu oyunu..."

Bu cümlə sanki salondakı bütün rəsmiyyəti əritdi. Fəxrəddin Manafov aşağıda qollarını mənə tərəf açdı: "Gəl!". Həyəcanın və sevincin qarışığı ilə pilləkənləri iki-iki düşüb yanına qaçdım. Yaxınlaşanda dayandırdı məni: "Niyə mənə yaxın olmaq istədiyini de". Auditoriyadan icazə alıb, illərdir içimdə daşıdığım o qırğınlıq dolu peşmanlığı bölüşdüm: "İllər öncə ustad aktyorumuz Rasim Balayevdən müsahibə almaq istəmişdim. (Fəxrəddin müəllim onun adını eşidəndə böyük bir ehtiramla salonu bir dəqiqəlik sükuta dəvət etdi, onu andıq). Zamanında o müsahibə alınmamışdı. Rasim müəllim mənə "Mən bütün suallara cavab vermişəm, yeni bir sual yoxdur, əgər varsa, (istehza ilə) tap, gəl" deyəndə incimiş, qırılmış və geri çəkilmişdim. Bir sözlə, vazkeçmişdim... İndi isə o vazkeçişin peşmanlığını yaşayıram. Çünki insan sevdiyi insanların, işlərin ardınca sonuna qədər getməli, onlara həyatdaykən sarılmalıdır. İndi isə qarşımda həmsöhbət olmağı ən çox arzuladığım iki nəfərdən biri dayanıb, o sizsiniz. Olarmı illər əvvəl Rasim Balayevə verə bilmədiyim həmin sualı sizə verim?"

Fəxrəddin Manafov əlini üreyinə qoydu, kövrək səs tonu ilə: "Mən bundan qürur duyaram".

Gözlərim dolmuşdu. Qarşımda dayanan ustad sanki o an həm də Rasim Balayevin obrazı idi. Və içimdəki o sualı verdim: "İnsan həyatda hər şeyi idarə edə bilir, amma bir şey var ki, o insanı idarə edir. Bu insanın hissləri, duyğuları, emosiyalarıdır. Mənə maraqlıdır, səhnədə bütün duyğuları peşəkarcasına idarə edən Fəxrəddin Manafov şəxsi həyatında da bunu bacarırmı?"

Ustad dayandı. Gözlərindəki ifadə dəyişdi. "Çox təsirli sualdır" deyib mənə sarıldı...

O an zaldan bu duyğuları müşayiət edən gur alqış sədaları sadəcə bir jurnalistin öz müsahibi ilə səmimi söhbətinə yox, iki insanın - səhnənin nəhəngi ilə bir gəncin ruhən qucaqlaşmasına verilən ən gözəl cavab idi. Peşmanlıqların ardınca gələn bu möhtəşəm an, mənə bir daha sübut etdi: Həyatda heç vaxt vaz keçmək olmaz. Xüsusən də sevdiyiniz insanların və arzularınızın ardınca getməkdən.

Bu səmimi qucaqlaşmadan sonra yenidən yerimə keçdim. Fəxrəddin müəllim sualıma dərindən, hər bir kəlməsini sənətkar süzgəcindən keçirərək cavab verməyə başladı. Emosiyaların o gizli dərinliklərini elə ustadcasına izah etdi, bir peşəkarın o hissləri səhnədə necə idarə etdiyini elə bədiiliklə danışdı ki, bütün salon heyranlıqla sadəcə onu dinləyirdi.

Görüşün davamında bəzi tələbələr gələcəkdə aktyor olmaq istədiklərini dedilər və onlara hansı rolların uyğun gələcəyini soruşdular. Ustad rolları və xarakterləri bölüşdürərkən gözləri yenidən məni axtardı. Zala müraciətlə gülümsəyərək dedi:

"Məsələn, o jurnalist xanıma tam inqilabi bir rol uyğun gələr. Çünki o, az öncə burada, hamımızın gözü qarşısında böyük bir inqilab etdi..."

Bu sözlər içimdəki peşə eşqini daha da alovlandırdı. Bir az sonra ona daha yaxın olmaq, hər bir jestini, nitqinin hər bir nüansını daha yaxından hiss etmək üçün aşağı sıralarda boş qalan yerlərdən birinə keçdim. Görüşün sonlarına yaxın Fəxrəddin müəllim zala baxıb məni əvvəlki yerimdə görməyəndə elə bildi ki, salondan çıxıb getmişəm. Səhnədən narahat bir səslə soruşdu: "Oyun oynamayan xanım haradadır?"

Aşağı sıradan əlimi qaldırıb, "Buradayam" dedim. Üzündə rahatlıq və səmimi bir təəssüf qarışığı yarandı: "Elə bildim getmisən, çox pis oldum..."

Mən isə gülümsəyərək pıçıldadım: "Getmərəm..." Çünki sənətin və belə bir ustadın sehrinə düşmüş bir jurnalist o salondan necə çıxıb gedə bilərdi?

Günün ən böyük mükafatı hələ qarşıda idi. Görüşün sonunda ustadla üz-üzə dayanıb, onunla müsahibə etmək şərəfinə nail oldum. Bu, sadəcə sual-cavab deyil, Xankəndinin havasını, ruhunu və gələcəyini hiss etdirən bir könül söhbəti idi. Fəxrəddin müəllim Xankəndidən elə bir sevgi ilə danışdı ki... Burada yeni uşaqların doğulmasından, onların bu torpaqlarda ilk addımlarını atıb məktəbə başlayacaqlarından bəhs etdi. "Onlar əsl Xankəndili olacaqlar" dedi, gözləri parıldayaraq.

Sonra qəfil mənə tərəf çevrilib soruşdu: "Siz də xankəndilisiniz?"

Qürurla cavab verdim: "Ağdamlıyam. Amma indi özümü tam buralı, xankəndili kimi hiss edirəm..."

Bax belə, müsahibəmiz duyğulu, kövrək notlarla yekunlaşdı. O an anladım ki, mən illər öncə bir müsahibədən vaz keçməklə bəlkə də qırılmışdım, amma bu gün Xankəndidə, Fəxrəddin Manafovun qarşısında taleyim mənə unuda bilməyəcəyim bir peşə dərsi verdi: Həyat sənə aid olanı gec-tez qaytarır. Yetər ki, istəklərinin ardınca getməkdən vaz keçməyəsən...

***Günel Abbas***
***Qarabağ Universitetinin əməkdaşı***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**





# Multikultural cəmiyyətin gücü...

## Mədəni müxtəliflik hər ölkənin zənginliyidir!

Dövlətləri bir-birindən ayıran əsas amillər siyasi struktur, coğrafi yerləşmə, tarix, adət-ənənələr, din və dildir. Bütün bu faktorlar bir araya gələrək hər bir dövlətin özünəməxsus identifikasiyasını və fərqliliyini müəyyənləşdirir, həmçinin cəmiyyətlərin çoxşaxəli və mürəkkəb quruluşunu ortaya qoyur. Belə xüsusiyyətlərin nəticəsi olaraq formalaşan çoxmədəniyyətli cəmiyyətlər həm zəngin mədəni irsi, həm fərqli dünyagörüşlərini bir araya gətirir.

## "Mədəniyyətlərin müxtəlifliyinə dair" bəyannamə

Etiraf edək ki, hazırda dünya mədəniyyətini müxtəlif amillər təhdid edir. Bir halda milli özünəməxsusluğun həddindən artıq qorunması müxtəlif azlıqların mədəniyyətləri üçün təhlükə yaradır, digər halda din mədəniyyətə təzyiq göstərir. Üçüncü halda isə praktik olaraq dünyanın bütün ölkələrində qloballaşmanın təsiri altında dillər, ənənələr itirilir, zəif mədəniyyətlər kənarda qalır, bəzən də tamamilə yox olur.

Bütün bu faktların nəzərə alınması və onların əhəmiyyətinin dərk edilməsi 2001-ci ildə YUNESKO-nun "Mədəniyyətlərin müxtəlifliyinə dair" bəyannaməsinin qəbul olunmasını zəruri edib. Bundan başqa, hər il mayın 21-də Dialoq və İnkişaf Uğrunda Dünya Mədəni Müxtəliflik Günü qeyd olunur. Bu gün BMT Baş Məclisi tərəfindən 2002-ci ilin dekabrında təsis edilib. Dialoq və İnkişaf Uğrunda Dünya Mədəni Müxtəliflik Günü ilk dəfə 2003-cü il mayın 21-də keçirilib.

## Tolerantlıq sadəcə başqa mədəniyyətlərin qəbulu deyil

Multikultural cəmiyyətin, mühitin əsas dayaqlarından biri də fərqli mədəniyyətlərin bir-birinə qarşı tolerant münasibətidir. Lakin bir şeyi dəqiq bilməliyik ki, tolerantlıq sadəcə başqasının və ya başqa mədəniyyətin kor-koranə şəkildə qəbulu deyil. Tolerantlıq müxtəlif mədəniyyətlərin öyrənilməsi, onunla mübadilə aparılması və qavranılmasıdır. Haqqında böyük ümidlərlə danışdığımız qloballaşmanın bütün dünyanı əhatə etməsi müxtəlif və fərqli mədəniyyətlərin bir-birini qavramasından irəli gəlir.

## Mədəni müxtəlifliyin Azərbaycan nümunəsi

Müasir dövrdə Azərbaycan cəmiyyətdəki etnik-mədəni müxtəlifliklərin düzgün tənzimlənməsi sahəsində örnək dövlətlərdən biridir. Bu sahədə ölkəmiz böyük nailiyyətlər əldə edib. Əsas göstərici olaraq ölkəmizdə etnik, dini və irqi zəmində heç bir qarşıdurmanın, münaqişənin olmamasını qeyd edə bilərik.

Özünəməxsus milli və yüksək humanist ənənələrə malik olan Azərbaycan həm də multikulturalizm prinsiplərini dünyada yayan nadir ölkələrdəndir. Reallıq odur ki, artıq multikulturalizmin Azərbaycan modeli formalaşıb və mükəmməl örnək kimi ölkəmizdəki çoxsaylı fərqli etnik qrupların sülh şəraitində yaşamasına, bərabərhüquqlu fəaliyyətinə tam zəmin yaradır. BMT konvensiyalarına qoşulan Azərbaycan mədəni müxtəlifliyin tanınmasına əsaslanır və mədəniyyətlərarası mübadiləni dərk edərək, daha çox həmrəyliyin bərqərar olmasına cəhd göstərir. Tarixin bütün dövrlərində Azərbaycanın dini, milli və mədəni dəyərlərə, müxtəlif dinlərin, millətlərin, mədəniyyətlərin, sivilizasiyaların mənsublarına münasibətinə görə tolerantlıq nümunəsi olması aşkar reallıqdır.

## Dünyada vəziyyət...

ABŞ geniş mədəni müxtəlifliliyinə görə tanınır. Dünyanın hər yerindən insanlar buraya öz adət və ənənələrini gətirərək köçüblər. Bu müxtəliflik mətbəxdə, festivallarda və ölkədə danışılan dillərdə özünü göstərir.

Hindistanda 2000-dən çox fərqli etnik qrup var. İsveçdə isə son illər mədəni müxtəliflik daha çox inkişaf edib. Ölkə bərabərlik və tolerantlığa önəm verməsi ilə tanınır.

Braziliyada yerli, Afrika, Avropa və Asiya təsirlərini birləşdirən mədəniyyətlər üstünlük təşkil edir. Bu müxtəliflik onun musiqisi, rəqsi və dini təcrübələrində özünü göstərir.

*Yeganə BAYRAMOVA*

# Armudu stəkanda çay

## Yaşı 5 min il olan içki...

Yorğunluq hiss etdiyimiz anlarda və əhvalımızı yüksəltmək istəyəndə tez-tez çay içirik. Dünyada sudan sonra ən çox istehlak edilən içki olan çayın tarixi təxminən 5 min il əvvələ gedib çıxır. Çayla bağlı maraqlı əfsanələr də mövcuddur. Məsələn, Böyük Çin imperatoru Shen Nungun zamanında bağçada su qaynadırkən təsadüfən bir neçə yarpaq qaynar suya düşür. Suya yayılan ətir imperatorun diqqətini çəkir və o, yarpaqlardan hazırlanan içkinin dadına baxır. Bu dad ona çox xoş gəlir və beləliklə, çay əvvəlcə Çində, sonra isə dünyada məşhur içki kimi qəbul edilir.

Çayın bugünkü dəmlənmə şəkli isə 4 min il bundan öncə kəşf edilib. Yeri gəlmişkən, mayın 21-i Beynəlxalq Çay Günüdür. BMT həmin tarixi çay idxal edən ölkələrdə bu məhsulun istehlakının azaldılmasına diqqət çəkmək məqsədilə elan edib.

Beynəlxalq Çay Gününü qeyd etmək uzun illər müzakirə mövzusu olsa da, bunu yalnız 2004-cü ildə Hindistanın Mumbay şəhərində və 2005-ci ildə Braziliyanın Portu-Aleqri şəhərində keçirilən ümumdünya ictimai forumlarından sonra reallaşdırmaq mümkün olub.

**Çayın yaranma tarixi...**

Çay sözünün mənşəyi də Çinə gedib çıxır. Bu içki həmin ölkənin ayrı-ayrı bölgələrində "ça" və "te" kimi tələffüz olunur. İngilislər də "te" əsasında "tea" sözünü formalaşdırıblar. Çay Avropaya 17-ci əsrin əvvəllərində holland və portuqal tacirlər tərəfindən gətirilib. 1635-ci ildən Hollandiya və Fransa Avropada çay istehlakına liderlik edən ölkələr hesab olunurlar. Bu bitkini ilk dəfə Amerikaya gətirən insanın adı isə Peter Stuyvesantdır. 1908-ci ildə bu günümüzdə geniş yayılmış birdəfəlik paket çayların ABŞ-da istehsalına başlanılıb.

Dünyada hazırda ən aparıcı çay istehsalçısı ölkələr Hindistan, Şri-lanka, Çin, Türkiyə, Keniya, İndoneziya, Malayziya, və Vyetnamdır.

Azərbaycanda çay bitkisi ilk dəfə 1912-ci ildə Lənkəranda əkilib. İlk çay zavodu da 1937-ci ildə Lənkəranda tikilib. Bundan sonra Azərbaycanda çayın kütləvi şəkildə istehsalına başlanılıb. Ölkəmizdə çay əsasən Lənkəran, Astara, Masallı və Zaqatalada yetişdirilir. 1970-1980-ci illərdə 36 min hektar sahədə çay əkilib-becərilib və 34 min tondan çox çay istehsal edilib. Həmin vaxt 15 zavod istifadəyə verilmişdi.

Gündəlik istifadə etdiyimiz çayın necə hazırlandığı, hansı çayın daha keyfiyyətli olduğu, eləcə də çayla bağlı digər məqamlar yəqin ki, çoxlarına maraqlıdır.

**Hansı çay daha yaxşıdır?**




Çay təbabətdə, infeksion xəstəliklərin qarşısının alınmasında, göz, dil, diş xəstəliklərinin müalicəsində istifadə olunub. Hansı çaya aqrotexniki qulluq göstərilirsə, onda məhsuldarlıq və keyfiyyət yüksək olur. Dünyada Hindistan çayı daha yaxşı çay hesab olunur. Bu gün ölkəmizdə istehsal olunan çaylar Hindistan-Çin hibridindən alınıb. Çünki bu məhsul şaxtaya dözümsüzdür, Günəş və suyu daha çox sevir. Yaxşı qulluq etdikdə ildə dörd dəfə məhsul götürmək mümkündür. Ən yaxşı çay "buket" növ hesab olunur. Daha sonra əla, ondan sonra birinci növ çay gəlir.

**Keyfiyyətli çay necə olur?**

Çaya uzaqdan baxanda onun keyfiyyətli məhsul olub-olmadığını bilmək olmaz. İstifadə etdikdən, dəmlədikdən sonra onun keyfiyyətinə qiymət vermək mümkündür. Bununla belə, çay alan zaman onun üzərində istehsal tarixinə, çeşidi, növü və sair məqamlara diqqət etməliyik. Qablaşdırılması normal olan məhsula üstünlük verilməlidir. Dəmlədikdən sonra çayın ətrindən onun keyfiyyətini bilmək olar.

**Çayın faydaları...**

Çayın tərkibində kofein olduğundan, dəmləyib istifadə etdikdən sonra yorğunluğu aradan qaldırır. Eyni zamanda çayın tərkibindəki antioksidant qocalmanı ləngidir. Bizim vərdişə çevirdiyimiz çay bütün infeksion xəstəliklərdə orqanizmə kömək edir. Həmçinin yeni hüceyrələrin yaranmasına kömək edir. Çay bədəni tərk edənə qədər bütün orqanlarımıza faydası toxunur. Həmçinin bədəndə qan damarlarına, əzələlərin bərpasına müsbət təsir göstərir.

**Dəmlədikdən sonra 20-30 dəqiqə ərzində...**

Köhnə çayı istifadə etmək tövsiyə edilmir. Nəzərə almaq lazımdır ki, biz çayı yorğunluğumuzun çıxması üçün içirik ki, bədənimiz gümrahlaşsın. Eyni zamanda, susuzluğumuzu yatırsın. Köhnə çay içdikdə artıq orqanizmə çayın faydası olmur. Ona görə də çayı dəmlədikdən sonra 20-30 dəqiqə ərzində istifadə etmək məsləhətdir.

**Ətirli çaylar ziyandır?**

Ətirləndiricilərdən istifadə müxtəlif zövqləri oxşamaq məqsədi daşıyır. Çayı ətirləndirmək üçün təbii qida məhsullarında istifadə olunan efir yağlarından istifadə edilir. Ətirləndiricilər arasında ən populyar olanı isə berqamotdur. Mütəxəssislər ətirli çayların ziyanı olmadığını bildirir.

**Gündə neçə stəkan içək?**

Bədənimizin mürəkkəb su balansını və fərdi ehtiyaclarımızı nəzərə almaq vacibdir. Hər bir insanın yaşı, fiziki fəaliyyəti, yaşayış mühiti, hətta hava şəraiti fərqli olduğundan, eyni miqdarda maye hər kəs üçün uyğun olmaya bilər. Elmi tədqiqatlar göstərir ki, ortalama olaraq gün ərzində təxminən 8 stəkan çay qəbul edilə bilər.

*Yeganə BAYRAMOVA*

# Ebola sürətlə yayılır...

## ÜST-dən pandemiya xəbərdarlığı

Dünya yenidən tibb və epidemiologiya sahəsində böyük sınaqla üz-üzədir. Söhbət Ebola virusundan gedir. Konqo Demokratik Respublikasında son sutka ərzində daha 26 nəfər həyatını itirib. Məlumata görə, bununla da ölkədə Ebola virusundan ölənlərin ümumi sayı 131 nəfərə çatıb.

Bildirilir ki, Konqoda indiyədək 543 ehtimal olunan və 33 təsdiqlənmiş Ebola yoluxması halı qeydə alınıb. Qonşu Uqandada isə daha iki təsdiqlənmiş yoluxma aşkarlanıb.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adanom Qebreyesus Ebolanın yayılma sürəti və miqyası ilə bağlı narahatlığını bildirib. O, Konqo Demokratik Respublikası və Uqandada Ebola virusunun yayılması səbəbindən ilk dəfə fövqəladə vəziyyət elan edildiyini açıqlayıb.

Qeyd edək ki, Ebola virusu təbiətdə əsasən meymunlar və yarasalar kimi heyvanlar arasında mövcud olan, insanlara nadir hallarda keçən, lakin keçdiyi zaman yüksək ölüm riski daşıyan virus infeksiyasıdır. Virus qan və bədən mayeləri vasitəsilə yayılır, bu infeksiya öz xarakterinə görə çox sürətlə insan orqanizminin immun sistemini zəiflədə bilir. Xüsusilə epidemik şəraitdə ciddi sosial və tibbi problemlər yaradır.

## Hansı simptomları var?

Ebola virusu insan orqanizminə yoluxduqdan sonra ilk günlərdə yorğunluq, baş ağrısı, əzələ və oynaqlarda ağrı kimi əlamətlərlə özünü göstərir. Bu simptomların adi qrip və ya digər viral infeksiyalarla oxşarlığı səbəbindən xəstəliyin erkən mərhələdə tanınması çox çətin olur. Bu da virusun gizli şəkildə yayılmasına şərait yaradır.

## Pandemiyaya çevrilmə ehtimalı aşağıdır

V.Cavadzadə qeyd edib ki, dünya miqyasında Ebolanın pandemiya səviyyəsinə çatması üçün müəyyən şərtlərin mövcud olması tələb olunur: "Məsələn, virusun hava-damcı yolu ilə effektiv yayılması, kütləvi və nəzarətsiz yayılma mərkəzlərinin olması, tibbi infrastrukturun zəifliyi və ictimaiyyətin məlumatlılığının aşağı olması kimi amilləri qeyd edə bilərik. Bu baxımdan, hazırkı biliklərimiz və epidemioloji təcrübələr göstərir ki, Ebola əsasən lokal epidemiyalar şəklində qalır və ümumdünya pandemiyasına çevrilmə ehtimalı digər hava-damcı yolu ilə yayılan viruslarla müqayisədə çox aşağıdır".

## Vətəndaşlarımız üçün təhlükə minimaldır, amma...

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən infeksionist Vüqar Cavadzadə bildirib ki, hazırda Azərbaycanda Ebola ilə bağlı hər hansı bir rəsmi təsdiqlənmiş yoluxma halı qeydə alınmayıb: "Səhiyyə qurumları, xüsusilə də dövlət infeksion xəstəlik stansiyaları və sanitar epidemioloji xidmətlər virusun ölkəyə gətirilməməsi üçün monitorinqi və sərhəd nəzarətini gücləndiriblər. Bu da onu göstərir ki, hazırkı vəziyyət nəzarət altındadır və vətəndaşlar üçün real təhlükə minimaldır. Lakin hər bir vətəndaşın gigiyenik qaydalara diqqət etməsi və səhiyyə orqanlarının tövsiyələrinə riayət etməsi həyati əhəmiyyət daşıyır".




## Tədbirlərin davamlı olması lazımdır ki...

İnfeksionistin sözlərinə görə, virusların sürətlə mutasiya edə bilməsi və qlobal səyahətlərin intensivliyi səbəbindən, dünya səhiyyəsi heç bir zaman tam rahat ola bilməz: "Belə xəstəliklərin yayılma potensialına qarşı hazırda mövcud olan təcili reaksiyalar, sərhəd nəzarətləri və vaksinasiyalar bizim əsas qoruyucu amillərimizdir. Buna görə də, həm fərdi, həm də ictimai sağlamlıq səviyyəsində tədbirlərin davamlı olması lazımdır ki, Ebola kimi viruslar yalnız mediada qısa müddətli xəbər olsun, real təhlükəyə çevrilməsin".

*Yeganə BAYRAMOVA*

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5346
Sifariş: 663
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova